

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ

№ 41 (935) ■ 31 oktyabr 2018 www.vergiler.az Qiyməti: 60 qəp.

# Azərbaycanın yürütdüyü müstəqil siyasət bütün dünyada rəğbətlə qarşılanır

**Oktyabrın 25-26-da Heydər Əliyev Mərkəzində VI Bakı Beynəlxalq Humanitar Forumu keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Forumun rəsmi açılış mərasimində iştirak ediblər. «Yeni dünya və yeni insan formalaşdıraq: yaradıcılıq və insan inkişafı» mövzusunda keçirilən Forumda dövlətimizin başçısı nitq söyləyib.**




Builki forumda 90-dan artıq ölkədən 400-dən çox xarici qonağın iştirak etiyini deyən Prezident İlham Əliyev bu mötəbər tədbirdə müzakirə ediləcək məsələlərin gələcək humanitar əməkdaşlıq üçün çox önəmli olacağını, xaricdən gələn qonaqların forumun işinə böyük töhfə verəcəklərinə əminliyini ifadə edib: «Humanitar məsələlərin müzakirəsi çox önəmlidir. Çünki biz müasir dünyada bu sahədə həm nailiyyətləri, həm də problemləri görürük. Azərbaycan bu sahəyə çox böyük önəm verən ölkələrdən biridir. Ölkəmizdə humanitar əməkdaşlığa dair bir çox mötəbər beynəlxalq tədbirlər keçirilmişdir. Onların arasında BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumunu xüsusilə qeyd etmək istərdim. Bu, çox önəmli beynəlxalq tədbirdir. Eyni zamanda, Bakıda dünya dinləri liderlərinin Zirvə görüşü keçirilmişdir. Dörd dəfə Mədəniyyətlərarası Dialoq Forumu keçirilmişdir. Altıncı dəfə Bakı Beynəlxalq Humanitar Forumunun keçirilməsi onu göstərir ki, doğrudan da Azərbaycan beynəlxalq humanitar əməkdaşlığın dərinləşməsi üçün çox önəmli ölkəyə çevrilmişdir».

Bu il «Bakı Prosesi»nin 10 illiyininin qeyd olunduğunu diqqətə çatdıran dövlətimizin başçısı bu tədbirin beynəlxalq təşkilatlar, o cümlədən BMT tərəfindən çox yüksək qiymətləndirildiyini qeyd edib: «Bizim təşəbbüsümüzlə 10 il bundan əvvəl Avropa Şurasına üzv ölkələrin mədəniyyət nazirlərinin Bakıda keçirilən toplantısına biz İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərini də dəvət etdik. Beləliklə, ilk dəfə olaraq 100-dən çox ölkənin nümayəndələri - müsəlman aləmini və Avropanı təmsil edən vəzifəli şəxslər bir araya gələrək humanitar məsələləri, mədəniyyət əlaqələrini, dinlərarası münasibətləri müzakirə etmişlər. Ondan bir il sonra bu format təkrarlandı, Bakıda İslam Əməkdaşlıq Təşkilatının xətti ilə keçirilmiş tədbirə biz Avropa nümayəndələrini dəvət etdik.

Azərbaycan həm İslam Əməkdaşlıq Təşkilatına, həm Avropa Şurasına üzv dövlətdir. Əlbəttə ki, biz bu imkanlardan istifadə edib çalışırdıq və çalışırıq ki, sivilizasiyalararası dialoqa öz töhfəmizi verək. Qeyd etdiyim kimi, «Bakı Prosesi» artıq beynəlxalq müstəvidə çox önəmli bir təşəbbüs kimi qiymətləndirilir. Bu təşəbbüs nəticəsində müxtəlif görüşlər, tədbirlər keçirilmişdir ki, bütün bunların bir məqsədi var - sivilizasiyalararası, dinlərarası dialoq dərinləşsin, güclənsin, dünyada risklər azalsın, ayrı-seçkilik, ksenofobiya hallarına düzgün qiymət verilsin və bu təhlükəli meyillərin qarşısı alınsın». Əsrlər boyu Azərbaycanda müxtəlif dinlərin, xalqların nümayəndələrinin bir ailə kimi sülh, əmin-amanlıq, mehribanlıq şəraitində yaşadığını deyən Prezident İlham Əliyev bu siyasətin bu gün də davam etdirildiyini vurğulayıb: «Ənənəvi dinlərin məbədlərinin - katolik, pravoslav kilsələrinin, sinaqoqların bərpası və tikintisi Azərbaycanda reallıqdır. Bu reallıq ölkəmizdə çox gözəl ictimai iqlim yaradır. Azərbaycanda multikulturalizm dövlət siyasətidir. Biz öz milli, dini ənənələrimizə çox bağlıyıq, sadiqik və milli dəyərlər gələcək inkişafımız üçün xüsusi rol oynayır. Deyə bilərəm ki, müasir Azərbaycan dövləti çox dərin milli dəyərlər, milli-mənəvi dəyərlər üzərində qurulubdur. Eyni zamanda, biz dünyaya açığıq. Qeyd etdiyim kimi, Azərbaycan dünyada multikulturalizmin ünvanlarından birinə çevrilib və bu şərəfli status artıq dünya birliyi tərəfindən də tanınır».

> “Azərbaycan dünyada multikulturalizmin ünvanlarından birinə çevrilib və bu şərəfli status artıq dünya birliyi tərəfindən də tanınır

Çıxışında Azərbaycan-Ermənistan Dağlıq Qarabağ münaqişəsinə toxunan dövlətimizin başçısı qeyd edib ki, problemin həlli üçün yeganə yol işğalçı qüvvələrin torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılmasıdır: «Əfsuslar olsun ki, təcavüzkar dövlət işğal edilmiş torpaqlarda bizim tarixi, dini abidələrimizi də dağıdıb, məhv edib. İşğal edilmiş torpaqlarımıza iki dəfə ezam olunmuş ATƏT-in faktaraşdırıcı və müşahidə missiyası öz məruzələrində bu barədə məlumat verib. Bizim məscidlərimiz, qəbirlərimiz dağıdılıb, muzeylərimiz talan edilib və işğal olunmuş torpaqlarda mədəni soyqırımı törədilib. 1992-ci ildə isə ermənilər Xocalı soyqırımını törədiblər. Bu dəhşətli hərbi cinayət nəticəsində 600-dən çox günahsız dinc insan, onların arasında 60-dan çox uşaq vəhşicəsinə qətlə yetirilib. Xocalı faciəsi dünyanın 10-dan çox ölkəsi tərəfindən rəsmi olaraq soyqırımı kimi tanınıb. Bu soyqırımı zamanı mindən çox insan itkin düşüb və onların taleyi haqqında heç bir məlumat yoxdur».

Prezident İlham Əliyev bəyan edib ki, Azərbaycan heç vaxt işğalla barışmayacaq, ölkəmizin ərazi bütövlüyü bərpa olunmalıdır. Bunu tarixi ədalət və beynəlxalq hüquq tələb edir: «Bu humanitar fəlakətə baxmayaraq, hesab edirəm ki, müstəqillik dövründə Azərbaycan çox uğurlu inkişafa nail ola bilibdir. Ölkəmizdə sabitlik, təhlükəsizlik hökm sürür. Sabitliyin mənbəyi Azərbaycan xalqının iradəsidir. Bu gün Azərbaycanda yaşanan vətəndaş həmrəyliyi ölkəmizin uğurlu inkişafı üçün əsas şərtdir. Ölkəmiz beynəlxalq müstəvidə böyük hörmət qazanıb və bizimlə əməkdaşlıq edən ölkələrin sayı gündən-günə artır».

Azərbaycanda sabitliyin mövcud olmasının ölkəmizə böyük həcmdə xarici sərmayənin gətirilməsinə gözəl şərait yaratdığını deyən dövlət başçısı qeyd edib ki, bu illər ərzində iqtisadiyyatımıza 250 milyard dollardan çox sərmayə qoyulubdur ki, bu sərmayənin yarısı xaricdən gələn vəsaitdir: «Azərbaycan son 15 il ərzində iqtisadi sahədə ən sürətli inkişaf templərini nümayiş etdirib. Mən hesab edirəm ki, bu, rekord göstəricidir. Çünki son 15 il ərzində ümumi daxili məhsul 3,2 dəfə artıb və beləliklə, Azərbaycan çox böyük inkişaf yolunu keçib. Biz iqtisadi sahədə tam müstəqillik əldə etmişik. İqtisadi müstəqillik, əlbəttə ki, siyasi müstəqilliyimizi möhkəmləndirir. Azərbaycan iqtisadiyyatı özünü təmin edən iqtisadiyyatdır, xarici kreditlərdən asılı iqtisadiyyat deyil. Biz nəinki kreditlərin alınmasını demək olar ki, dayandırmışıq, özümüz bəzi ölkələrə kreditlərin verilməsinə başlamışıq.

Makroiqtisadi sabitlik Azərbaycanda çox yüksək səviyyədədir. Deməliyəm ki, bizim xarici borcumuz ümumi daxili məhsulun cəmi 20 faizini təşkil edir. Bununla belə, bizim maliyyə ehtiyatlarımız xarici borcumuzdan 4-5 dəfə çoxdur. Yəni, istədiyimiz halda biz xarici borcumuzu bir neçə ay ərzində sıfır səviyyəsinə endirə bilərik. Ona görə iqtisadi sahədə aparılan köklü islahatlar, əlbəttə ki, sosial sahəyə də müsbət təsir göstərib. Əgər biz sosial sahənin önəmli istiqamətlərinə nəzər yetirsək görərik ki, Azərbaycanda yoxsulluq şəraitində yaşayan insanların sayı son 15 il ərzində 49 faizdən 5,4 faizə düşübdür. İşsizlik bir sosial problem kimi demək olar ki, aradan götürülür, işsizlik 5 faiz səviyyəsindədir. Nəzərə almalıyıq ki, bu illər ərzində ölkə əhalisi də artır və əhali hər il ən azı 100 min nəfər artır. Ona görə bizim iqtisadi inkişafımız və o cümlədən sosial infrastrukturun yaradılması daimi proses olmalıdır. Biz bu sahədə də çox böyük işlər görmüşük». Çıxışında təhsil, səhiyyə, idman, nəqliyyat və digər sahələrə də diqqət çəkən Azərbaycan Prezidenti forum iştirakçılarını bir daha salamlayaraq uğurlar arzulayıb.

Sonra Rusiya Federasiyası Baş nazirinin müavini xanım Olqa Qolodets, BMT baş katibinin müavini Rəşid Xalikov, ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycri, UNESCO-nun baş direktorunun müavini Çu Sin, Parlamentlərarası İttifaqın prezidenti xanım Qabriela Baron çıxış ediblər. Açılış mərasimi başa çatdıqdan sonra Forum işini plenar və işçi sessiyalarla davam etdirib.

Qeyd edək ki, 2010-cu ildən təşkil olunan Forumun təşəbbüsçüləri Azərbaycan və Rusiya prezidentləridir. Beynəlxalq Humanitar Forum qlobal xarakterli məsələlərə dair geniş spektrli dialoqlar, fikir mübadilələri və müzakirələr aparmaq məqsədilə müxtəlif ölkələrdən tanınmış dövlət xadimlərini, elmin fərqli sahələri üzrə Nobel mükafatı laureatlarını və nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərini, o cümlədən dünyanın siyasi, elmi və mədəni elitasının nümayəndələrini bir araya toplayan mötəbər tədbirdir. VI Bakı Beynəlxalq Humanitar Forumu gələcək dünyamızı formalaşdıracaq kreativ ideyalar və onların həyata keçirilməsi yollarının axtarılmasını diqqətdə saxlayacaq. Dünyanı vahid məkan və bütün bəşəriyyəti bir cəmiyyət kimi görmək istəyi yeni münasibətlər qurmağa, daha mütərəqqi və aktual müzakirələr aparmağa imkan verəcək və bəşəriyyətin inkişafına ənənəvi yanaşmalarda dəyişikliklərin yaranmasına vəsilə olacaq.

# Prezident İlham Əliyevin Qax və Şəki rayonlarına səfəri

**Oktyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qax rayonuna səfərə gəliblər. Dövlətimizin başçısı və xanımı ulu öndər Heydər Əliyevin Qax şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstələri qoyublar.**



Səfər çərçivəsində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qax Damazlıq İpəkçilik Stansiyasının açılışında iştirak ediblər, müəssisənin rəmzi açılışını bildirən lenti kəsiblər. Kənd təsərrüfatı naziri İnam Kərimov burada yaradılan şərait barədə məlumat verib. Qax-Qıpçaq-Ağyazı avtomobil yolunun açılışında iştirak edən dövlətimizin başçısına Yevlax-Zaqatala-Gürcüstan ilə dövlət sərhədi avtomobil yolunun tərkib hissəsinə aid olan Zaqatala-Balakən-Mazımçay hissəsi, eləcə də Qorağan-Qax-Zaqatala avtomobil yolunun Qax-Zaqatala hissəsinin yenidən qurulması barədə də məlumat verilib.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva «Ulu Aqro» MMC-nin Qax Aqroparkının açılışında iştirak ediblər. «Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə aqroparkda görülən meliorativ tədbirlər, həmçinin Əyriçay su anbarı magistral kanallarının planı barədə dövlətimizin başçısına məlumat verib. İqtisadiyyat naziri Şahin Mustafayev Sahibkarlığın İnkişafı Fondunun maliyyə dəstəyi ilə Şəki-Zaqatala iqtisadi rayonunda yaradılan və fəaliyyəti genişləndirilən müəssisələr, həmçinin tütün, fındıq, bal, quru meyvə istehsalı üzrə respublika, o cümlədən bu iqtisadi rayondakı ötən ilin statistik göstəriciləri barədə məlumat verib. Rayon ictimaiyyətinin nümayəndələri ilə görüşən Prezident İlham Əliyev onların qarşısında çıxış edib və aqroparkın suvarma sistemini işə salıb, əkin sahəsinə baxıb. Səfər çərçivəsində dövlətimizin başçısı və birinci xanım Qax şəhərində «Ulu Yurd» Məhdud Məsuliyyətli Cəmiyyətinin «Yurd Hotel» mehmanxanasının açılışında da iştirak ediblər. Dövlətimizin başçısı otelin rəmzi açılışını bildirən lenti kəsib və burada yaradılan şəraitlə tanış olub.

**Davamı 2-ci səhifədə**

## Rəsmi xronika

- Prezident İlham Əliyev oktyabrın 30-da İsveçrə Konfederasiyasının təhsil, araşdırma və innovasiya üzrə dövlət katibi Mauro Dell'Ambrogionu qəbul edib. Dövlətimizin başçısı ölkələrimiz arasında əməkdaşlığın yeni sahələri əhatə etməsindən məmnunluğunu bildirib, əlaqələrimizin inkişafı üçün yaxşı imkanların olduğunu vurğulayıb. Mauro Dell'Ambrogio bu günlərdə ölkələrimiz arasında təhsil və turizm sahələrində imzalanan sazişlərin mühüm əhəmiyyət daşıdığını bildirib.

- Dövlətimizin başçısı Türkmənistan Respublikası Nazirlər Kabineti sədrinin müavini Məmmetxan Çakıyevi qəbul edib. Görüş zamanı ölkələrimiz arasında münasibətlərin dinamik inkişaf etdiyi bildirilib, bu səfərin dostluq və qardaşlıq əlaqələrimizin möhkəmlənməsi, əməkdaşlığımızın daha da genişləndirilməsi işinə töhfəsini verəcəyinə əminlik ifadə olunub. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

- Mərakeş Krallığının inzibati islahatlar və dövlət qulluğu naziri Məhəmməd bin Abdelkaderi qəbul edən Prezident İlham Əliyev ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində həmişə bir-birini dəstəklədiyini vurğulayıb, iqtisadi, regional inkişaf sahələrində də yaxşı nəticələrin olmasının zəruriliyini qeyd edib. Mərakeşli nazir qeyd edib ki, Azərbaycan Prezidenti ilə görüşü ölkələrimiz arasında mövcud olan gözəl münasibətlərin daha da inkişaf etdirilməsinin yaxşı bir nümunəsidir və siyasi iradənin təzahürüdür.

Vergilər naziri Vergi Sammitində iştirak edib — səh. 2

Nağdsız ödənişlərə marağın artırılması üçün stimullaşdırıcı tədbirlərə ehtiyac var — səh. 3

Kassa çeki nə üçün alınmalıdır? — səh. 4

Sərnişin daşımalarından vergi daxilolmaları — səh. 5

# Prezident İlham Əliyevin Qax və Şəki rayonlarına səfəri

**Əvvəli 1-ci səhifədə**

Oktyabrın 29-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəki şəhərinə gəliblər. Dövlətimizin başçısı və xanımı əvvəlcə ümummilli lider Heydər Əliyevin Şəki şəhərindəki abidəsini ziyarət ediblər, önünə gül dəstələri qoyublar. Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Mərkəzinin, Bayraq Muzeyinin, Şəki-Kiş avtomobil yolunun açılışında iştirak ediblər.



Şəki «ASAN Həyat» kompleksinin açılışına qatılan Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva burada yaradılan şəraitlə tanış olublar. Kompleksdə fəaliyyət göstərən «ASAN Peşə» mərkəzi, «ASAN Kommunal», innovativ yeniliklərdən olan «E-Gate» xidməti, «ASAN Viza», «ASAN İnkişaf yolu» layihəri və iş prinsipləri barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, Şəki «ASAN Həyat» kompleksində «CoWorking» mərkəzi də fəaliyyət göstərəcək. Mərkəz yeni başlayan bizneslərə - startaplara inkubasiya dövrü üçün nəzərdə tutulan ümumi iş yeridir. Bu modeldən frilanserlər və tək işləyənlər də istifadə edirlər. Diqqətə çatdırılıb ki, regionlarda 10 səyyar «ASAN xidmət» avtobusu və səyyar «ASAN qatar» vasitəsilə vətəndaşlara xidmətlərin göstərilməsi davam etdirilir. Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəki «ASAN Həyat» kompleksinin əməkdaşları ilə görüşüb söhbət ediblər. Dövlətimizin başçısı görüşdə çıxış edib.

Həmin gün Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən Şəki şəhərində qarışıq tipli uşaq evi üçün inşa olunan yeni binanın açılışında iştirak ediblər. Məlumat verilib ki, uşaq evinin yerləşdiyi bina qəzalı vəziyyətdə olduğundan və mövcud infrastruktur rahat məskunlaşmaya imkan vermədiyindən burada uşaqlara lazımi səviyyədə xidmət göstərmək mümkün deyildi. Burada məskunlaşan uşaqların yaşayış şəraitinin, təlim-tərbiyə və asudə vaxtlarının təşkilinin yaxşılaşdırılması məqsədilə ötən il Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən, ikimərtəbəli yeni binanın inşasına başlanılıb və qısa müddətdə Şəki şəhərinin memarlıq üslubunun qorunub saxlanılmasına əməl olunmaqla ən müasir standartlara uyğun şəkildə tikilib istifadəyə verilib. Heydər Əliyev Fondu tərəfindən uşaq evinə müvafiq avadanlıq və avtobus hədiyyə edilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəkiyə səfərləri çərçivəsində «ABAD» Keramika və Tətbiqi Sənət Mərkəzinin açılışında da iştirak ediblər. Məlumat verilib ki, «ABAD» publik hüquqi şəxsin Şəki Keramika və Tətbiqi Sənət Mərkəzinin binası XIX əsrin axırlarında tikilib və kazarma kimi istifadə olunub. Baxımsız və qəzalı şəraitdə olan həmin bina «Paşa Holdinq»in dəstəyi ilə yenidən qurulub, müasir avadanlıqlarla təchiz edilib. Mərkəzlə tanışlıq zamanı bildirilib ki, «Yuxarı Baş» Dövlət Tarix-Memarlıq qoruğu Şəki şəhərinin qədim tarixi hissəsində yerləşir. Qoruğun UNESCO-nun mədəni irs siyahısına salınması yönündə dövlət tərəfindən müvafiq işlər həyata keçirilir. «Xan sarayı» I, IV, V meyarlarla irs siyahısına salınıb. Şəki Keramika və Tətbiqi Sənət Mərkəzinin binası da qoruğun UNESCO-nun müvafiq siyahısına salınacaq ərazisində, Qala divarlarının içərisində yerləşən beş kazarma binasından biridir. Bina 1867-ci ildə tikilmiş tarix-memarlıq abidəsidir. İkimərtəbəli binada işçilər və təlimlərə qoşulacaq şəxslər üçün istirahət otaqları da var. Burada, həmçinin termik soba və təlim otaqları, xammal və hazır məhsul anbarları, etno-butik, ofis və xalçaçılıq otağı yerləşir. Bir sözlə, mərkəzdə keramika və tətbiqi sənətlə məşğul olanlar üçün hər cür şərait yaradılıb.

Mərkəzin məqsədi ölkəmizin, əsasən də Şəki rayonunun tarixi keramika ənənələrinin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi, həmçinin müxtəlif çeşidli Azərbaycan gilinin dünyada tanıdılmasıdır.

## Vergilər naziri Vergi Sammitində iştirak edib

Oktyabrın 24-26 tarixlərində Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (IOTA), Amerikadaxili Vergi Administrasiyaları Mərkəzi (CIAT) və Portuqaliyanın Vergi və Gömrük Orqanının birgə təşkilatçılığı ilə Lissabon şəhərində «Rəqəmsal İqtisadiyyat»a dair Vergi Sammiti keçirilib. IOTA və CIAT-ın üzvləri olan Avropa, Amerika, Asiya və Afrika ölkələrinin 76-dan çox vergi orqanı və 26 müxtəlif təşkilatın nümayəndələrini bir araya gətirən tədbir rəqəmsal iqtisadiyyatın vergi aspektləri, bu sahədə yeniliklər və problemlərə dair fikir və təcrübə mübadiləsinə həsr olunub.

Sammitdə Azərbaycanın vergilər naziri Mikayıl Cabbarovun rəhbərlik etdiyi nümayəndə heyəti də iştirak edib. Nazir sammitin «Vergi inzibatçılığı 10-15 il sonra: dəyişikliklərin tempinə necə uyğunlaşmalı» mövzusunda keçirilən sessiyasında çıxış edib. Azərbaycanda rəqəmsal iqtisadiyyatın qurulması və vergi inzibatçılığının rəqəmsallaşdırılması sahəsində görülən işlərə toxunan Mikayıl Cabbarov ölkəmizdə uzun illərdir ki, vergi bəyannamələrinin elektron təqdim edildiyini, elektron vergi hesab-fakturasının tətbiqinin həyata keçirildiyini, eyni zamanda vergi ödəyicilərinə çoxsaylı elektron xidmətlər göstərildiyini diqqətə çatdırıb.

Vergi administrasiyasının dəyişməkdə olan iqtisadi mühitə uyğunlaşmasının vacibliyini qeyd edən nazir bildirib ki, bu gün rəqəmsal iqtisadiyyat iştirakçılarının vergi yükü ənənəvi iqtisadiyyat iştirakçılarının vergi yükündən azdır və bu mənada, vergi administrasiyalarının növbəti 10 ildə qarşısında duran əsas çağırışlardan biri bu istiqamətdə vergi siyasətinin düzgün formalaşdırılmasıdır. Vurğulanıb ki, vergi siyasəti rəqəmsal iqtisadiyyatda baş verən dəyişikliklərin tempinə uyğunlaşmalıdır.

M.Cabbarov qeyd edib ki, vergi inzibatçılığında rəqəmsal texnologiyalardan, xüsusən də süni intellekt və blokçeyn texnologiyalarının təqdim etdiyi üstünlüklərdən istifadə artıq zamanın tələbinə çevrilib. Bu baxımdan, vergi administrasiyaları məlumat mübadiləsi və şəffaflıq kimi güclü alətlərin imkanlarından istifadə etməyə çalışmalıdırlar. Qeyd olunub ki, IOTA və CİAT kimi təşkilatlara üzv ölkələr bu sahədə onların təcrübəsindən geniş şəkildə faydalanmalıdır. Vergilər naziri, həmçinin, vergilərlə bağlı ictimai məlumatlandırma işinin vacibliyini və bu məsələnin növbəti illər üçün prioritet istiqamətlərdən olacağını diqqətə çatdırıb. Vergi ödəyicilərinin tələbləri qarşılığında onlara adekvat xidmətlərin göstərilməsinin əhəmiyyəti vurğulanıb.

Mikayıl Cabbarov müzakirələr zamanı sammit iştirakçılarının suallarını da cavablandırıb. Rəqəmsal iqtisadiyyatın iştirakçılarının rəqib, yoxsa partnyor olması ilə bağlı suala cavab verən nazir birmənalı şəkildə partnyor münasibətlərinin qurulmasının vacibliyini qeyd edib və vergi orqanının bu prosesin vacib elementi kimi tənzimləyici rolundan danışıb.

## Mikayıl Cabbarov Portuqaliyada bir sıra görüşlər keçirib

Lissabon şəhərində keçirilən «Rəqəmsal İqtisadiyyat»a dair Vergi Sammiti çərçivəsində Azərbaycanın vergilər naziri Mikayıl Cabbarov Portuqaliyanın Vergi və Gömrük Administrasiyasının baş direktoru xanım Helena Borxes ilə görüşüb. Görüşdə iki qurum arasında əməkdaşlıq və gələcəkdə qarşılıqlı hüquqi-müqavilə bazasının daha da inkişaf etdirilməsi məsələləri müzakirə olunub. Tərəflər ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiyanın, eləcə də Məlumat mübadiləsi və vergi borclarının alınmasında qarşılıqlı inzibati yardım haqqında Anlaşma Memorandumunun imzalanmasının vacibliyini vurğulayıblar.

Mikayıl Cabbarov Portuqaliyaya səfəri çərçivəsində İspaniyanın Vergi Agentliyinin baş direktoru Xesus Qaskon ilə də görüşüb. Görüş zamanı iki ölkə arasında ikitərəfli və çoxtərəfli formatlarda qarşılıqlı əməkdaşlığın hazırkı səviyyəsindən məmnunluq ifadə olunub, xüsusilə Avropa İttifaqının Tvinninq yardım aləti vasitəsilə həyata keçirilən və İspaniya Krallığının aidiyyəti qurumlarının tərəfdaş olduğu layihələrin vergi sisteminin təkmilləşdirilməsi prosesinə verdiyi töhfələrin əhəmiyyəti vurğulanıb. Tərəflər, həmçinin, Azərbaycan və İspaniya arasında ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiyanın hüquqi qüvvəyə minməsi, eləcə də Məlumat mübadiləsi və vergi borclarının alınmasında qarşılıqlı inzibati yardım haqqında Anlaşma Memorandumunun imzalanması ilə bağlı məsələləri müzakirə ediblər.

Vergilər naziri Mikayıl Cabbarov Lissabonda Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) İcraçı Katibi Migel Silva Pinto ilə görüşüb. Görüş zamanı Vergilər Nazirliyi ilə IOTA arasında əməkdaşlıq səviyyəsindən məmnunluq ifadə edilib, gələcəkdə birgə tədbirlərin təşkilinin vacibliyi qeyd olunub. Migel Silva Pinto təşkilat tərəfindən ölkələr arasında təcrübə mübadiləsinin təşviq edilməsi üçün həyata keçirilən və gələcəkdə tətbiqi nəzərdə tutulan layihələr barədə məlumat verib.



Sammit çərçivəsində Mikayıl Cabbarov IOTA-nın 22-ci Baş Assambleyası zamanı təşkilatın yeni seçilmiş prezidenti, Belçika Krallığının Federal Dövlət Maliyyə Xidmətinin İcraedici Komitəsinin rəhbəri Hans Dondt ilə də görüşüb. Görüşdə Azərbaycan Respublikası Vergilər Nazirliyi ilə Belçika Krallığının Federal Dövlət Maliyyə Xidməti arasında IOTA çərçivəsində qarşılıqlı faydalı əməkdaşlığın mövcud vəziyyəti və gələcək perspektivləri barədə fikir mübadiləsi aparılıb. Söhbət zamanı əməkdaşlığın səmərəliliyinin daha da yüksəldilməsi üçün Məlumat mübadiləsi və vergi tələblərinin alınmasında qarşılıqlı inzibati yardım haqqında Anlaşma Memorandumunun imzalanmasının vacibliyi vurğulanıb.

Vergilər naziri Portuqaliyada Litva Respublikasının Maliyyə Nazirliyi nəzdində Dövlət Vergi Müfəttişliyinin rəhbəri xanım Edita Yanuşene və Ukraynanın Dövlət Fiskal Xidmətinin rəhbəri vəzifəsini müvəqqəti icra edən Oleksandr Vlasov ilə də görüşüb. Hər iki görüşdə əməkdaşlığın mövcud vəziyyəti və inkişafı perspektivləri barədə fikir mübadiləsi aparılıb.

# Xidməti müqavilələrlə bağlı yeni qaydalar hazırlanır

## Faktiki olaraq daimi işdə çalışanların siyahısı vahid məşğulluq reyestrinə daxil ediləcək

İşəgötürən təşkilatlar qarşısında mülki-hüquqi müqavilə, yəni xidməti müqavilə əsasında çalışan işçilərlə bağlı yeni tələblər qoyulacağı, bununla da real olaraq daimi işlə məşğul olanların xidməti müqavilə əsasında çalışmasının qadağan ediləcəyi planlaşdırılır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdindəki Dövlət Məşğulluq Xidmətinin şöbə müdiri İsa Həsənov «Vergilər» qəzetinə açıqlamasında bildirib ki, hazırda xidməti müqavilələrlə bağlı yeni qaydalar hazırlanır və yaxın vaxtlardan təsdiq olunması üçün aidiyyəti qurumlara təqdim ediləcək. Bu sahədə əsas yeniliklərdən biri xidməti müqavilə ilə çalışanların siyahısının elektron şəkildə hazırlanması olacaq: «Xidməti müqavilələrin izahı ilə bağlı «Məşğulluq xidməti haqqında» Qanunda hər hansı anlayış yox idi. Həmin qanuna edilmiş dəyişikliklərdə isə mülki-hüquqi xarakterli müqavilələr haqqında konkret izahat verilib. Ümumiyyətlə, bu cür müqavilələr Mülki Məcəllə ilə tənzimlənir. Yəni bu cür müqavilələrlə işləyən işçilərlə işəgötürən təşkilat arasında hər hansı əmək münasibətləri yaranmır və Əmək Məcəlləsində işçilər üçün nəzərdə tutulan sosial hüquqlar həmin şəxslərə şamil olunmur. Halbuki Əmək Məcəlləsinə əsasən, hər bir işçi ilə əmək müqaviləsi bağlanmalıdır və müqavilədə iş rejimi, əməkhaqqı, əməkhaqqına əlavələr, istirahət və məzuniyyət müddəti, iş rejiminin zərərli olub-olmaması haqqında məlumatlar, işçinin və işəgötürənin vəzifə öhdəlikləri təsbit edilir. Bütün bunlar əmək müqaviləsi ilə çalışan işçilər üçün gələcəkdə bir sıra sosial üstünlüklərə təminat yaradır. O cümlədən işçi işlədiyi dövrdə hər hansı zədə, yaxud peşə xəstəliyi alarsa, bülletenə çıxarsa buna görə ödəniş almalı və bunlar əmək müqaviləsində əksini tapmalıdır. Xidməti müqavilə əsasında çalışanlar isə bu sosial hüquqlardan bəhrələnmək imkanına malik deyil».

Yeni hazırlanan qaydalar qanunvericilikdə nəzərdə tutulmuş iş rejimində çalışan, lakin mülki-hüquqi əsaslarla işə cəlb edilən işçilərin xidməti müqavilədən əmək müqaviləsinə keçirilməsini nəzərdə tutur. Belə ki, xidməti müqavilə adı altında uzun müddət eyni yerdə çalışanların müqavilələri dəyişdirilərək əmək müqaviləsinə daxil ediləcək. Nazirlik rəsmisi deyir ki, xidməti müqavilə əsasında çalışanların VÖEN-i olsa da, bu, bir çox hallarda formal xarakter daşıyır: «İşəgötürən tərəfin göstərdiyi xidmətin müqabilində ona verdiyi əməkhaqqından vergi və icbari sosial sığorta haqqı ödənilir. Bununla da işəgötürən vergi və sosial sığorta ödənişlərinə dair öhdəlikləri ona xidmət göstərən işçinin üzərinə qoyur. Həmin şəxsin işçi kimi digər sosial hüquqları, o cümlədən əmək məzuniyyəti, əməkhaqqına əlavələr, istirahət müddəti bütünlüklə itirilmiş olur. Çünki xidməti müqavilələrdə Əmək Məcəlləsində nəzərdə tutulmuş digər sosial müdafiə xarakterli hüquqlar əks etdirilmir».

Yeri gəlmişkən, son illər Azərbaycanda daimi işçilərin xidməti müqavilə əsasında işə qəbuletmə hallarına daha çox rast gəlinir. Məqsəd işəgötürənin vergi orqanları qarşısında məsuliyyətini azaltmaq, vergilərdən və sosial ödənişlərdən yayınmaqdır. İ.Həsənov isə bildirir ki, əgər işçi 3-4 il eyni sahədə və müəssisədə çalışırsa, üstəlik hər gün saat 9:00-dan 18:00-dək işdə olursa, bu, artıq əmək münasibətidir: «Bu, onu göstərir ki, həmin həxs daimi işçi kimi çalışır və belə olan halda, onun xidməti müqavilə əsasında çalışan kimi rəsmiləşdirilməsi düzgün deyil. Ona görə də yeni hazırlanan qaydalara əsasən, xidməti müqavilələr yalnız konkret iş qrafiki olmayanlarla imzalanacaq. Tutaq ki, şirkət daxili kompüter şəbəkəsinə xidmət göstərilməsi üçün işçi axtarır, daxildən bir daimi işçi istəmirsə, hansısa mütəxəssisə müraciət edir. Belə şəxslər xidməti müqavilə ilə işləyə bilərlər. Yeni qaydalara görə isə maksimum 6 aylıq işlər xidməti müqavilə ilə tənzimlənə bilər. Hətta elə sahələr var ki, orada işçinin xidməti müqavilə ilə çalışma müddəti 3-4 aydan çox olmamalıdır. Bu, o deməkdir ki, işçinin mülki-hüquqi müqavilə əsasında çalışdığı iş yerləri müvəqqəti işlər hesab ediləcək».

“Yeni hazırlanan qaydalar qanunvericilikdə nəzərdə tutulmuş iş rejimində çalışan, lakin mülki-hüquqi əsaslarla işə cəlb edilən işçilərin xidməti müqavilədən əmək müqaviləsinə keçirilməsini nəzərdə tutur

Nazirlik rəsmisi deyir ki, bəzi işəgötürənlər xidməti müqavilə əsasında işə götürdükləri işçiləri əmək müqaviləsinin tələblərinə uyğun şəkildə işlədir və bu, illərlə davam edir. Bu cür halların üzə çıxarılması üçün xidməti müqavilə əsasında çalışanların da siyahısı məşğulluq reyestrinə daxil ediləcək. Başqa sözlə, ölkədə faktiki məşğul əhali bütünlüklə qeydə alınacaq və bu zaman onların əmək, yoxsa xidməti müqavilə əsasında çalışdığı reyestrdə əksini tapacaq: «Bu qaydaların tətbiqinə bütün məşğul şəxslərin siyahısı tam dəqiqləşdirildikdən sonra başlanacaq. Çünki mülki-hüquqi şəxslər tərəfindən Dövlət Statistika Komitəsinə verilən məlumatda xidməti müqavilə əsasında işləyənlərin sayı faktiki göstəricilərin çox cüzi hissəsini təşkil edir. Məsələn, 2017-ci ildə xidməti müqavilə əsasında çalışan işçilərin sayının 8,1 min nəfərdən bir qədər artıq olduğu göstərilir. Halbuki belə işçilərin faktiki sayı dəfələrlə çoxdur. Heç kəsə sirr deyil ki, əksər xidmət sahələrində, o cümlədən ictimai iaşə və əyləncə obyektlərində xidməti müqavilə əsasında işləyənlər çoxluq təşkil edir».

Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının rəhbəri Sahib Məmmədovun sözlərinə görə, işçilərin xidməti müqavilə əsasında çalışması yalnız işəgötürənin maraq və mənafelərinə xidmət edir: «Xidməti müqavilə imzalayan işçi mütləq fiziki şəxs kimi vergi orqanlarında qeydiyyatdan keçməli və onun VÖEN-i olmalıdır. Bundan sonra o, işəgötürəndən aldığı əməkhaqqından sadələşdirilmiş vergi ödəməlidir. Belə olan halda, işəgötürənin həmin işçi qarşısında heç bir öhdəliyi yaranmır».

S.Məmmədovun fikrincə, xidməti müqavilənin bağlanılması zamanı işçiyə ödənilən məbləğ əməkhaqqı kimi deyil, xidmət haqqı kimi rəsmiləşdirilir ki, bu da onun gələcək pensiya təminatında ciddi maneələr yaradır: «Bu baxımdan, faktiki olaraq daimi işlə məşğul olanların xidməti müqavilə əsasında çalışan işçi kimi rəsmiləşdirilməsinin qadağan edilməsi, hər şeydən əvvəl, vətəndaşların maraqlarına uyğundur. Hazırda xidməti müqavilə əsasında işləyən şəxslərlə əmək müqavilələrinin bağlanması həm vergi, həm də icbari sosial sığorta ödənişlərinin artımına və işçilərin hüquqlarının qorunmasına şərait yaradacaq».

**Elxan SALAHOV**

# Nağdsız ödənişlərə marağın artırılması üçün stimullaşdırıcı tədbirlərə ehtiyac var

**Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 sentyabr tarixli sərəncamı ilə «2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı» təsdiq edilmişdir. Mərkəzi Bankın Ödəniş sistemləri və hesablaşmalar departamentinin Milli ödəniş sisteminin inkişafı şöbəsinin rəisi Ramil Mahmudovla müsahibə Dövlət Proqramında əhatə edilmiş məsələlərə həsr olunub.**



***- Ramil müəllim, ölkəmizin iqtisadi həyatında rəqəmsal ödənişlərin aktuallaşmasını zəruriləşdirən başlıca şərtlər nədir və bu sahədə nə kimi işlər görülür?***

- Mərkəzi Bank aidiyyəti dövlət qurumları ilə uzun müddət milli ödəniş sisteminin yaradılması və inkişafı istiqamətində ardıcıl və davamlı islahatlar aparıb, layihələr reallaşdırıb. Bu gün ölkənin milli ödəniş infrastrukturu öz funksional imkanlarına görə regionda aparıcı mövqedədir, ən müasir tələblərə cavab verir. Lakin nağdsız ödəniş sistemlərindən istifadə göstəricisi hələ də aşağı səviyyədədir. Məhz bu səbəbdən də rəqəmsal ödənişlərin genişləndirilməsi strateji inkişaf istiqamətlərindən biri kimi müəyyən olunmuş və 2016-cı ildə qəbul edilmiş «Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi»ndə Mərkəzi Banka da bununla əlaqədar bir sıra işlərin görülməsi həvalə olunmuşdur.

«2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı» bu tapşırığın icrası məqsədilə hazırlanmışdır. Proqram ölkənin nağdsız cəmiyyətə doğru təfsilati tədbirlər planını ehtiva edir. Sənəddə vətəndaş, biznes subyektləri və dövlət strukturları arasında nağd dövriyyənin həcminin minimuma endirilməsi və nağdsız ödəniş mühitinin genişləndirilməsi, nəticədə bank sektorunun maliyyə resursları bazasının gücləndirilməsi strateji məqsəd kimi müəyyən edilib. Nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi iqtisadiyyatın nağdsızlaşmasını sürətləndirəcək, real ÜDM-in və dövlət büdcəsi gəlirlərinin artmasına, əhalinin həyat səviyyəsinin yüksəlməsinə ciddi töhfə verəcək.

Dövlət Proqramının hazırlanması məqsədilə böyük təcrübəyə malik «MasterCard Worldwide» beynəlxalq kart təşkilatı cəlb olunub. Layihə dövründə icraçı təşkilatla birlikdə dövlət qurumları, kommersiya bankları ilə çoxsaylı görüşlər keçirilib, Bakı şəhərində və 9 rayonda 560 təşkilat və 700 istehlakçı arasında sorğu və müsahibə təşkil edilərək, ölkədə rəqəmsal ödənişlərin inkişafına mane olan amillər təhlil olunub. Beynəlxalq təcrübədə geniş yayılmış ekonometrik üsullardan istifadə edilməklə hər bir sektor üzrə nağd iqtisadiyyatın həcmi müəyyənləşdirilib.

Layihə dövründə, ilk növbədə, rəqəmsal ödənişlərin yaxşılaşdırılmasına maneçilik törədən problemlərin yaranma səbəblərini araşdırdıq. Məsələn, bu gün dövriyyədə 2 milyona yaxın əməkhaqqı kartı var. Lakin gündəlik həyat tərzində vətəndaşların nağd ödənişlərə üstünlük verdiyi, bir sıra təsərrüfat subyektlərinin POS-terminallardan istifadədən yayındığı bir şəraitdə innovativ ödəniş vasitələrinin geniş yayılmasından danışmaq çətin olur. Qeyd edim ki, rəqəmsal ödənişlərin artırılması istiqamətində beynəlxalq təcrübə çox genişdir. Bunların arasından ən mühüm və mövcud reallığa ən uyğun olan təcrübələri seçdik və tədbirlər planı hazırladıq. Əsas istiqamətləri və hədəfləri müəyyənləşdirməklə biznesdə rəqabət mühitinin inkişaf etdirilməsi, şirkətlərdə şəffaflığın təmin olunması və s. kimi institusional sahələr, həmçinin rəqəmsal ödənişlər infrastrukturunun genişləndirilməsi üzrə tədbirlər həyata keçirdik.

***- Əldə olunacaq nəticələr hansı qənaətləri yaradır? Çətinliklər əsasən nədə müşahidə edilə bilər?***

- Əgər bu gün təsərrüfat subyektləri nağdsız ödənişlərə keçiddən yayınırsa, deməli, burada hansısa verginin ödənilməsindən yayınma motivi var. Bu səbəbdən, əsas hədəflərdən biri də vergi inzibatçılığının, vergi sisteminin yaxşılaşdırılmasıdır. Vergilər Nazirliyinin nağdsız ödənişlərin artımında böyük marağı var və nazirlik bu istiqamətdə Mərkəzi Bankla sıx əməkdaşlıq edir. Qeyd edim ki, məhşur «Moody Analitik»in hesablamalarına görə, nağdsız ödənişin bir faiz artımı ümumi daxili məhsulun ortalama 0,1 faiz artımına bərabərdir. Bu isə kifayət qədər böyük rəqəmdir. Rəqəmsal ödənişlərin daha çox artımına nail ola bilsək, vergi bazasının artımını, eyni zamanda bank-maliyyə sektorunun güclənməsini təmin edə bilərik.

***- Sizcə, rəqəmsal ödənişlərin genişləndirilməsi istiqamətində bank sektorunda hansı tədbirlər görülməlidir?***

- Bazara nəzər salsaq, görərik ki, bu gün bütün rəqəmsal ödənişləri təqdim edən, əsasən, banklardır. Məhz bu səbəbdən, bankların innovativ texnologiyaların tətbiqinə həvəsi və imkanı yoxdursa, arzuolunan inkişafdan söhbət gedə bilməz. Daha bir mühüm faktor rəqəmsal ödəniş ekosistemidir. Rəqəmsal ödəniş ekosistemi dedikdə, ümumilikdə bankomat, POS-terminal və bütövlükdə elektron ödənişləri həyata keçirmək üçün istənilən infrastruktur nəzərdə tutulur. Bu elə bir sahədir ki, burada yeniliklər, innovativ texnologiyalar böyük önəm daşıyır. Bu sahədə ən son trendlər, barmaq, üz təsviri ilə biometrik ödənişlər, blokçeyn texnologiyaları günümüzün reallığına çevrilib. Ümumiyyətlə, rəqəmsal ödəniş dinamik inkişaf edən bir sahədir. Texnologiyalar inkişaf etdikcə trendlərlə birlikdə bazarı da inkişaf etdirmək lazımdır. Çünki müştəri tələbatı durmadan artır. Qloballaşan mühitdə bank sektorunda 15 il əvvəllə müqayisədə bu günün tələbatı, bütövlükdə insanların həyat tərzi fərqlidir. Ödəniş sahəsi də belədir. Əvvəllər hər hansı malın alınması, ölkəyə gətirilməsi uzun bir proses idisə, indi dünyanın istənilən yerində elektron ticarət edib, ödəniş aparmaq bir göz qırpımında olan şeydir. Biz də həmin trendlərdən geri qala bilmərik. Bu səbəbdən, bankların rəqəmsal ödənişlərin genişləndirilməsində rolu yüksəkdir.

***- Yeri gəlmişkən, ölkəmizdə elektron ticarətin inkişaf səviyyəsi ilə bağlı fikirlərinizi öyrənmək istərdik...***

- Xarici ölkələrdə mağazaları gəzmək vaxt itkisi sayıldığı üçün insanlar daha çox elektron ticarətə üstünlük verirlər. Azərbaycanda 2018-ci ilin 8 ayı ərzində ölkə daxilində ödəniş kartları ilə aparılmış əməliyyatların həcmi təxminən 10,5 milyard manat təşkil edib, ondan elektron ticarət vasitəsilə mal, iş və ya xidmətlərin dəyərinin ödənilməsi təxminən 0,9 milyard manat olub.

Elektron ticarətin inkişafı üçün müasir tələblərə cavab verən poçt daşımaları infrastrukturu yaradılmalıdır. Elekton ticarətin geniş yayıldığı ölkələrdə bu xidmətdən geniş istifadə edilir. Hər bir istehlakçı istədiyi poçt şöbəsini öz ünvanı kimi seçə bilir, bildirişləri kağız formatla yanaşı, SMS və ya elektron-poçt vasitəsilə alır. Azərbaycanda ünvan sisteminin dəyişdirilməsi prosesinə başlanılması, poçt qutularının yararsız hala düşməsi və ya götürülməsi, 7/24 rejimində çalışan poçt şöbələrinin və «Smart poçt qutuları»nın olmaması və hazırda poçt göndərişləri barədə bildirişin alıcıya əsasən kağız formada çatdırılması daşınmanın keyfiyyətinə mənfi təsir göstərməkdədir.

Eyni zamanda, elektron ticarət platformaları üçün təhlükəsizlik tələblərinin müəyyən edilməsi, istehlakçıların fərdi (o cümlədən ödəniş) məlumatlarının qorunması və alğı-satqı əməliyyatlarının təhlükəsizliyinin təmin edilməsi vacib şərtlərdəndir. Bu səbəbdən, «2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı»nda qeyd olunan sahənin inkişafına da diqqət ayrılıb. Dövlət Proqramında elektron ticarət infrastrukturunun genişləndirilməsi və həmçinin elektron ticarət platformaları üçün minimal təhlükəsizlik tələblərinin müəyyən edilməsi kimi tədbirlər də yer almışdır.

> **Elektron ticarət infrastrukturunun genişləndirilməsi və elektron ticarət platformaları üçün minimal təhlükəsizlik tələblərinin müəyyən edilməsi vacib şərtlərdəndir**

***- Azərbaycanda rəqəmsal bankçılığın və bütövlükdə smart ödəniş həllərinin səviyyəsi zamanın tələbləri ilə ayaqlaşırmı?***

- Rəqəmsal bankçılıq artıq həyatımızın ayrılmaz hissəsinə çevrilib və bu sahə durmadan dəyişməkdədir. Mobil və elektron bankçılıq ilə yanaşı, bu gün beynəlxalq təcrübədə smart ödəniş həlləri geniş tətbiq edilir. Biz bu gün elektron ödəniş aləti kimi yalnız kartı tanıyırıqsa, inkişaf etmiş ölkələrdə kartlar tədricən öz yerini smart ödəniş həllərinə verir. Cibdə bir neçə kartın daşınması artıq tarixə köçür. Bu dəyişikliklər ödənişlərin təhlükəsizliyinin də önəmini artırır. Təcrübə göstərir ki, bu ödənişlərin təhlükəsizliyə inamını bir dəfə itirən ödəyici, bir daha rəqəmsal ödənişlərə üz tutmur.

Digər mühüm məsələ bütün bölgələri yeni xidmətlərlə əhatə etməkdir. Təəssüflər olsun ki, Bakı şəhəri istisna olmaqla, regionlarda, xüsusən ucqar bölgələrdə bu sahədə hələ də problemlər qalmaqdadır. Layihə çərçivəsində məqsədimiz bərabər infrastrukturun maksimal dərəcədə bütün bölgələri əhatə etməsinə nail olmaqdır.

Rəqəmsal ödənişlərin stimullaşdırılması da diqqətdən kənarda deyil. Elektron bankçılıq xidmətlərindən istifadə səviyyəsinin artırılması üçün yetərli maliyyə savadlılığı vacib amildir. Bu sahədə görüləcək işlər hələ də yetərincədir.

***- Bu gün POS-terminallardan istifadə qənaətbəxş hesab edilə bilərmi?***

- Hazırda vətəndaşlarda olan kartlarla istənilən növ nağdsız əməliyyat aparmaq mümkündür. Ancaq təəssüflə qeyd etməliyəm ki, kart sahibləri hələ də bankomatdan nağd pul çıxarmağa üstünlük verirlər. Biz Dövlət Proqramının hazırlanması ərəfəsində problemi kökündən araşdırdıq: sahibkarlarla görüşdük, bütün tərəflərin arqumentləri dinlənildi. Müşahidələrimiz göstərir ki, bir sıra təsərrüfat subyekti nağdsız ödənişi qəbul etmək istəmir. Təbii ki, bunun da kökündə vergidən yayınma, dövriyyənin leqallaşmasını istəməmək durur. Bu gün ölkədə 66 minə yaxın POS-terminal olsa da onlardan istifadə edilməsi arzuolunan səviyyədə deyil. Bu istiqamətdə də maarifləndirmə tədbirləri aparılır.

Son illərdə ölkə daxilində ödəniş kartları ilə aparılmış əməliyyatların sayında nağdsız ödənişlərin payı 40%-ə yaxınlaşır. Məlumat üçün deyim ki, 2010-cu ildə bu göstərici cəmi 4% təşkil edirdi.

***- Qeyd etdiniz ki, nağdsız ödənişlərin təşviqi üçün stimullaşdırıcı tədbirlərə ehtiyac var. Bu sahədə nə kimi yeniliklər gözlənilir?***

- Mərkəzi Bank hazırda yeni bir stimullaşdırıcı lotereya layihəsi üzərində iş aparır. İndiyə qədər ayrı-ayrı banklar öz müştərilərinə lotereya təqdim edirdi, bizim hazırladığımız layihə isə ümumrespublika əhəmiyyətlidir. Burada insanlara hansı bankın müştərisidir deyə, fərq qoyulmur və heç bir məhdudiyyət olmadan bütün kart istifadəçilərini əhatə edir. Yeni layihəmizdə POS-terminallar vasitəsilə 5 manatlıq alış-veriş edən şəxs avtomatik şəkildə lotereyanın oyunçusuna çevrilməklə uduş şansı əldə edəcək. Qalibə çatacaq məbləğ isə onun kart hesabına köçürüləcək. Burada əsas məqsəd insanların diqqətini nağdsız ödənişlərə cəlb etməkdir.

Bu il «Mastercard»ın dəstəyi ilə Naxçıvanda uğurlu bir kampaniya təşkil edildi. Şərtlərə əsasən, bir mağazada 30 manatlıq alış-veriş edən və ödənişini kartla həyata keçirən hər bir şəxsə hədiyyələr təqdim olundu. Tədbirdə təxminən 400-ə yaxın kart sahibi iştirak edirdi. Hazırda bu kampaniya daha iki mağazada davam etdirilir.

***Müsahibəni hazırladı:***
**Fəxriyyə İKRAMQIZI**

# Azərbaycan dünyada ilk dəfə mobil rezidentlik təqdim edib

**Oktyabrın 24-də Bakıda İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin və İslam, Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ISESCO) birgə təşkilatçılığı ilə «Rəqəmsal Ticarət Qovşağının ikinci beynəlxalq konfransı: Elektron və Mobil Rezidentlik Proqramı»nın təqdimat mərasimi keçirilib. Konfransda Azərbaycanın dövlət qurumlarının, biznes icmasının, ictimai təşkilatların üzvləri, ABŞ, Tailand, İsveçrə, Böyük Britaniya, Estoniya, Türkiyə, Mərakeş və digər ölkələrin 200-ə yaxın nümayəndəsi iştirak edib.**

Konfransı giriş nitqi ilə açan İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı bildirib ki, regionun təşəbbüskar və lider ölkəsi olan Azərbaycan nəqliyyat, logistika, neft-qaz layihələri ilə Qərblə Şərqi, Şimalla Cənubu birləşdirərək mühüm strateji mövqeyini möhkəmləndirməkdədir. Respublikamız rəqəmsal imkanları ilə Avrasiyanın mərkəzinə çevrilib və təsadüfi deyil ki, Avrasiyanın ilk Rəqəmsal Ticarət Qovşağı məhz Azərbaycanda yaradılıb: «Hazırda yeni çağırışların astanasında olan ölkəmiz «dördüncü sənaye inqilabı»nın ruhuna uyğun olaraq, rəqabətli və dayanıqlı inkişafın gələcəyini innovativ texnologiyaların tətbiqində, «yaşıl iqtisadiyyat» və rəqəmsal dövlət quruculuğunda görür və mövcud texnoloji resurslar, iqtisadi imkanlar bu istiqamətdə sərf olunmaqdadır. Müasir qlobal meyilləri cəmiyyətin həyat tərzinə çevirməyi prioritet hesab edən Azərbaycan dünyada ikinci Rəqəmsal Ticarət Qovşağını yaratmaqla, ilk mobil rezidentlik və ikinci elektron rezidentliyi təqdim etməklə region üçün nümunəvi ölkə olduğunu təsdiqləyir».

Tədbirdə çıxış edən ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycri bildirib ki, Azərbaycan bir çox aspektlər, o cümlədən texnoloji baxımdan Qərblə Şərqi birləşdirən bir məkandır. Bu baxımdan, ISESCO ilə «ASAN imza»nın tanıdılmasına dair imzalanmış memorandum Azərbaycanın beynəlxalq rəqəmsal tranzitdə yerini və mövqeyini möhkəmləndirəcək. Qeyri-rezidentlərə elektron imza sertifikatlarının verilməsi isə xarici biznes üçün investisiya rəqabətini genişləndirməklə xarici sərmayələrin yeni dalğasına təkan verəcək.

***Avropa İttifaqı vergi sahəsində e-xidmətlərin tətbiqi ilə bağlı yeni layihələrə dəstək verəcək***

Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri Kestutis Jankauskas bildirib ki, Azərbaycan ən qabaqcıl elektron texnologiyaları tətbiq etməklə Avropa ilə tərəfdaşlığın yeni mərhələsinə daxil olmaqdadır. Hökumət neft və qaz sənayesini rəqəmsal bizneslə əvəz etməklə, şaxələndirilmiş iqtisadiyyat quruculuğunda prinsipiallığını nümayiş etdirir. Avropa İttifaqı vergi, gömrük, sosial müdafiə, əmək bazarı və digər sahələrdə e-xidmətlərin tətbiqi ilə bağlı yeni layihələrə öz dəstəyini davam etdirəcək.

Sonra mobil rezidentlik ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycriyə, elektron rezidentlik isə Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Kestutis Jankauskasa təqdim edilib. Konfransda çıxış edən rabitə, nəqliyyat və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə qeyd edib ki, Azərbaycan Rəqəmsal Ticarət Qovşağının yeni platformasını formalaşdırmaqla beynəlxalq bazarlarda mövqeyinin gücləndirilməsinə və xarici ticarət əməliyyatlarının genişləndirilməsinə nail olmaqdadır. Ötən müddətdə dövlətimizin diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə xarici iş adamları ilə qeyri-rezidentlərə elektron imza, o cümlədən «ASAN imza» sertifikatının verilməsi imkanı yaradılıb. Hazırda bir çox ölkələrlə elektron imzaların qarşılıqlı tanıdılması istiqamətində işlər davam etdirilir.

***Əcnəbilər elektron və mobil rezidentlik vasitəsilə Azərbaycanın rəqəmsal vətəndaşlığını əldə edəcəklər***

Rəqəmsal Ticarət Qovşağının meneceri Nicat Əsədli qeyd edib ki, elektron rezidentlik Azərbaycanın səfirlikləri və diplomatik nümayəndəlikləri vasitəsilə həyata keçiriləcək. Xarici ölkə vətəndaşları elektron və mobil rezidentliyi əldə etmək üçün Azərbaycana gəlmədən öz ölkələrində bu proseduru identikləşdirəcək və Azərbaycanın rəqəmsal vətəndaşlığını əldə edəcəklər. Beləliklə, onlar respublikamızda təqdim olunan bütün elektron xidmətlərdən ölkəyə gəlmədən, heç bir miqrasiya prosesindən keçmədən istifadə etmək imkanı qazanacaqlar. E-rezidentlik onlara Azərbaycanda yeni şirkəti qeydiyyatdan keçirmək, bank əməliyyatları və müxtəlif ödənişlər aparmaq, vergiləri onlayn şəkildə ödəmək imkanı verəcək.

***Bəyannamələrin böyük əksəriyyəti elektron formada göndərilir***

Vergilər Nazirliyinin Dövlət qeydiyyatı və uçota nəzarət departamentinin baş direktoru Ələkbər Məmmədov vergi sistemində tətbiq olunan elektron xidmətlər, xarici investisiyaların və xarici ticarətin genişlənməsində qeyri-rezidentlərə verilən «ASAN imza»nın əhəmiyyəti barədə danışıb. Bildirib ki, ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatlar, iqtisadiyyatın bütün sahələrində olduğu kimi, vergi sistemində də geniş tətbiq olunmaqla vergi qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsini ehtiva edir. Ölkədə sahibkarlığın inkişafına və vergi mühitinin yaxşılaşdırılmasına xidmət edən bu islahatların əsas hədəfi vergi mədəniyyətini yüksəltmək və könüllü vergi ödəmələrini təmin etməkdir. Məhz bu məqsədə nail olmaq üçün vergi inzibatçılığında - vergi ödəyicilərinə göstərilən xidmətlərdə müasir metodlardan, xüsusilə elektron xidmətlərdən istifadənin genişləndirilməsinə daim diqqət verilir: «Hazırda Vergilər Nazirliyində 69 sayda elektron xidmət həyata keçirilir və həmin xidmətlərdən istifadə edənlərin sayı durmadan artır. Elektron qeydiyyatın tətbiq olunduğu dövrdən indiyədək qeydiyyata alınmış yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin 52,7%-i, o cümlədən 2017-ci ildən dövlət qeydiyyatına alınmış hüquqi şəxslərin 70%-i elektron qaydada dövlət qeydiyyatından keçib. Bu gün bəyannamələrin 95,1%-i, o cümlədən ƏDV üzrə bəyannamələrin 98%-i elektron formada göndərilir».

Bildirilib ki, təkcə 2018-ci ilin ötən 9 ayı ərzində Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi tərəfindən 159 min «ASAN imza» sertifikatı (bura «şəxsi», «iş», «dövlət və bələdiyyə» sertifikatları da daxildir) verilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 46,3% çoxdur. Ümumilikdə isə ötən 5 il ərzində istifadəçilərə 573 mindən çox «ASAN imza» sertifikatı verilib. Bu, «E-hökumət»in ən yaxşı modeli kimi özünü doğruldub, elektron xidmətlərin genişlənməsində, biznesin inkişafında, yerli və xarici investorların fəaliyyətinin asanlaşmasında əhəmiyyətli rola malikdir.

Qeyri-rezidentlərə «ASAN imza»nın (elektron və mobil rezidentlik) verilməsi ilə Azərbaycanda e-xidmətlər sektorunda yeni növ e-xidmətin tətbiqinə başlandığını deyən Ə.Məmmədov qeyd edib ki, artıq Vergilər Nazirliyi tərəfindən bununla bağlı texniki baza formalaşdırılıb və qanunvericilik aktlarının tələbinə uyğun olaraq proqram təminatı hazırlanıb. O, əcnəbi investorlara «ASAN imza»nın verilməsinin ölkəmizdə xarici investisiyalı müəssisələrin sayının və iqtisadiyyatın daha da cəlbediciliyinin artmasına səbəb olacağına əminliyini ifadə edib: «Hazırda respublikamızda xarici investisiyalı hüquqi şəxslərin sayı 9934-ə (aktiv hüquqi şəxslərin 15,2%-i) bərabərdir, onlardan 2511-i xarici hüquqi şəxsin filial və nümayəndəlikləri, 2347-si birgə mülkiyyətli hüquqi şəxslər, 5076-sı isə (51,1%) tam xarici investisiyalı hüquqi şəxslərdir. Ötən ilin 9 ayı ilə müqayisə etsək, qeydiyyata alınmış tam xarici investisiyalı hüquqi şəxslərin sayı 58,6% artıb. İndi isə ölkəmizdə qeyri-rezidentlərə elektron imzanın verilməsinə başlanılır, əminik ki, bu, xarici investisiyalı hüquqi şəxslərin sayının və coğrafiyasının artımına səbəb olacaqdır».

***«E-imza»nın verilməsi xarici rezidentlərin vergi daxilolmalarının artmasına səbəb olacaq***

Konfransda çıxış edən Estoniya parlamentinin vitse-spikeri Kalle Laanet, Türkiyənin «EDAM» innovasiya mərkəzinin rəhbəri Ussal Şahbaz, Elektron Hökumətin İnkişafı Mərkəzinin direktoru Fariz Cəfərov, «Gazinformservice» MMC-nin baş icraçı direktorunun müşaviri Sergey Kiryushkin, «BEST Solutions» Azərbaycan şirkətinin rəhbəri Yana Krimpe, «Bridgiz» şirkətinin baş icraçı direktoru Ahmed Larouz və digər natiqlər bildiriblər ki, Azərbaycan Estoniyadan sonra əcnəbilərə e-rezidentlik təqdim edən ikinci ölkə olmaqla, rəqəmsal dövlət quruculuğunda güclü siyasi iradəyə malik olduğunu göstərir. E-rezidentliyin əldə olunması xarici şirkətlərin transsərhəd mübadiləsi və elektron imzaların qarşılıqlı tanınması istiqamətində mühüm əhəmiyyət kəsb edir. Bu platformanın yaradılması Azərbaycanda xarici biznesin inkişafının stimullaşdırılmasına töhfə verəcək, ölkəmizə səfər edən əcnəbi turistlərin, iqtisadiyyata yatırılan sərmayələrin və vergi daxilolmalarının artmasına səbəb olacaq.

**Elbrus CƏFƏRLİ**

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin
Vergi siyasəti departamentinin baş direktoru
vergi ödəyicilərinin suallarına cavab verir

# Ödəmə mənbəyində vergi

**Rezident müəssisənin ona göstərilən xidmətlərlə bağlı Lixtenşteyndə təsis olunmuş şirkətə etdiyi ödənişlər ödəmə mənbəyində hansı vergilərə cəlb olunur?**

Vergi Məcəlləsinin 13.2.16.14-1-ci maddəsinə əsasən, həmin Məcəllənin 128-ci maddəsində nəzərdə tutulan güzəştli vergi tutulan ölkələrdə təsis edilmiş (qeydiyyatdan keçmiş) subyektlərə rezidentlərin və qeyri-rezidentlərin Azərbaycan Respublikasındakı daimi nümayəndəlikləri tərəfindən birbaşa və ya dolayısı ilə olunan ödənişlər Azərbaycan mənbəyindən gəlirlərə aiddir.

Vergi Məcəlləsinin 125.1.5-ci maddəsinin müddəalarına əsasən, qeyri-rezidentin həmin Məcəllənin 13.2.16-cı maddəsi ilə Azərbaycan mənbəyindən əldə olunan gəliri kimi müəyyən edilən və qeyri-rezidentin Azərbaycan Respublikasının ərazisindəki daimi nümayəndəliyinə aid olmayan işlərin görülməsindən və ya xidmətlərin göstərilməsindən əldə edilən digər gəlirlərindən ödəmə mənbəyində xərclər çıxılmadan 10 faiz dərəcə ilə vergi tutulur. Vergi Məcəlləsinin 125.1.9-cu maddəsində qeyd olunur ki, həmin Məcəllənin 13.2.16.14-1-ci maddəsində göstərilən ödəmələr ödəmə mənbəyində 10 faiz dərəcəsi ilə vergiyə cəlb olunur.

Vergi Məcəlləsinin 128.2-ci maddəsinə görə, güzəştli vergi tutulan xarici ölkə dedikdə, vergi dərəcəsi bu Məcəllədə müəyyən edilmiş dərəcədən 2 dəfə və ya daha çox aşağı olan və maliyyə məlumatını, yaxud əmlakın faktiki sahibi və ya gəlir (mənfəət) götürən barədə sirri qorumaq imkanı verilmiş şirkətlər haqqında məlumatın məxfiliyinə dair qanunun mövcud olduğu ölkə başa düşülür. Güzəştli vergi tutulan ölkələrin və ərazilərin siyahısı Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 11 iyul tarixli 1505 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.

**Qeyd olunanlara əsasən:**

Adı çəkilən fərmanla güzəştli vergi tutulan ölkə kimi müəyyən olunmuş Lixtenşteyndə təsis edilmiş şirkət ilə bağlanmış müqavilə əsasında rezident müəssisə tərəfindən ona aparılan ödənişlərdən Vergi Məcəlləsinin 125.1.5-ci maddəsinə əsasən ödəmə mənbəyində 10 faiz dərəcə ilə vergi tutulmaqla yanaşı, Vergi Məcəlləsinin 125.1.9-cu maddəsinə uyğun olaraq, 10 faiz dərəcə ilə vergi hesablanıb dövlət büdcəsinə ödənilməlidir.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- İndiyədək Milli Sertifikat Xidmətləri Mərkəzi tərəfindən **159 mindən** çox elektron imza sertifikatı təqdim olunub.
- Bu ilin yanvar-sentyabr ayları ərzində ölkədə fəaliyyət göstərən 21 sığorta şirkəti tərəfindən **568.5 milyon** manat məbləğində sığorta haqqı toplanıb, **186.9 milyon** manat məbləğində sığorta ödənişi həyata keçirilib.
- Türkiyənin Enerji Bazarını Tənzimləmə Təşkilatının yaydığı məlumata görə, cari ilin ilk səkkiz ayında Azərbaycandan qardaş ölkəyə təqribən **4 milyard 424 milyon** kubmetr həcmində qaz göndərilib.
- 2018-ci il sentyabrın 30-na Azərbaycanda fəaliyyət göstərən bankların cəmi aktivləri **29.201.8 milyon** manat, kredit portfeli **11.901.4 milyon** manat, cəmi öhdəlikləri isə **25.089 milyon** manat təşkil edib.

## ƏRAZİ VERGİ ORQANLARINDA

- Sumqayıt şəhərində 2 saylı Ərazi Vergilər Departamentinin əməkdaşları yeni qeydiyyata alınmış vergi ödəyiciləri ilə görüş keçiriblər. Tədbirdə vergi ödəyiciləri tərəfindən vergilərin düzgün hesablanaraq, tam həcmdə və vaxtında dövlət büdcəsinə köçürülməsi, elektron xidmətlərdən istifadə, əmək haqlarının düzgün bəyan edilməsi məsələləri müzakirə edilib. Görüş iştirakçılarına əmək müqaviləsi hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin, xidmətlərin yerinə yetirilməsinə cəlb edilməsinə görə Əmək Məcəlləsində nəzərdə tutulmuş tədbirlər, hesablaşmaların yalnız nağdsız qaydada aparılması zəruriliyi, elektron qaimə-fakturanın tətbiqi və digər vergitutma məsələləri barədə məlumat verilib.
- Gəncə şəhərində 12 saylı Ərazi Vergilər Departamentinin əməkdaşları müəllim və tələbələrlə görüş keçiriblər. Vergi qanunvericiliyinə edilmiş dəyişikliklər və vergilər sahəsində tətbiq olunan yeniliklər barədə məlumatlandırma məqsədi daşıyan tədbirdə iştirakçılara vergi mədəniyyətinə, şəffaflığa və könüllü əməlatməyə nail olunmasının Vergilər Nazirliyinin prioritet məsələlərindən biri olduğu bildirilib. Görüşdə vergi ödəyicilərinin qeydiyyatı məsələləri, vergi orqanlarında işə qəbul və kənd təsərrüfatı məhsullarının vergiyə cəlb edilməsi barədə iştirakçıların sualları cavablandırılıb.

# Uçot dərəcəsi azaldıldı

Mərkəzi Bankın İdarə Heyəti oktyabrın 30-da uçot dərəcəsinin 10%-dən 9,75%-ə endirilməsi haqqında qərar qəbul edib. Faiz dəhlizinin yuxarı və aşağı hədləri isə uçot dərəcəsinə ±2 faizlik dəhlizdə (yuxarı hədd 11,75%, aşağı hədd 7,75%) müəyyənləşdirilib.

Mərkəzi Bankın sədri Elman Rüstəmov ətraflı şərh edərək bildirib ki, İdarə Heyətinin son toplantısından keçən dövr ərzində inflyasiya azalmaqda davam edib. Doqquz aylıq orta illik inflyasiya (2,6%) Mərkəzi Bankın cari ilə hədəf dəhlizindən (6-8%) aşağıda formalaşıb. İnflyasiyanın həm xarici, həm də daxili risk amillərinin yumşalması fonunda cari ilə inflyasiyanın 3-4% ətrafında olacağı proqnozlaşdırılır. Uçot dərəcəsinin gələcəkdə dəyişdirilməsi proqnozlaşdırılan inflyasiyanın elan edilən hədəf intervalına uyğunluğundan asılı olacaq.

# Kassa çeki nə üçün alınmalıdır?

Şəhərimizin əksər supermarketlərində, iri ticarət obyektlərində alıcıya kassa çeki əvəzinə daha çox «müştəri qəbzi» təqdim etməyə meyil edirlər. Bu isə dövriyyənin gizlədilməsi və vergidən yayınmanın ən geniş yayılmış formalarından biridir.

Hüquqşünas Xəyal Məmmədxanlının sözlərinə görə, bu cür qanunsuz halların qarşısını almaq yalnız dövlət orqanlarının işi olmamalıdır, öz növbəsində ictimaiyyət bu sahədə fəal iştirak etməlidir: «İstehlakçı hüquqlarının müdafiəsi üçün ən təsirli addım alınan istənilən mala görə nəzarət-kassa aparatının çeklərinin tələb edilməsidir. Çek - malın haradan alınmasını təsdiqləyən rəsmi sənəddir. Satıcılar mal satarkən istehlakçıya qəbz, kassa çeki və ya digər yazılı sənəd verməyə borcludurlar. Əks təqdirdə, Vergi Məcəlləsinin 58-ci maddəsinə əsasən, nağd pul hesablaşmalarının aparılması qaydalarının pozulmasına, yəni nəzarət-kassa aparatları və ya ciddi hesabat blankları tətbiq edilmədən (nəzarət-kassa aparatları quraşdırılmadan, qanunvericiliklə müəyyən edilmiş formalara uyğun ciddi hesabat blankları olmadan və ya nağd ödənilmiş məbləği mədaxil etmədən), vergi orqanlarında qeydiyyatdan keçirilməyən və ya texniki tələblərə cavab verməyən nəzarət-kassa aparatlarından istifadə etməklə qanunvericiliklə müəyyən olunmuş ciddi hesabat blanklarından istifadə etmədən və ya müəyyən olunmuş qaydada təsdiq edilmiş formalara uyğun olmayan ciddi hesabat blanklarından istifadə etməklə əhali ilə pul hesablaşmalarının aparılmasına, alıcıya təqdim edilməli olan çekin, bankların valyuta mübadilə şöbələri tərəfindən müştəriyə təqdim edilməli olan bank çıxarışlarının və ya digər ciddi hesabat blanklarının verilməməsinə və ya ödənilmiş məbləğdən aşağı məbləğ göstərilməklə verilməsinə, nəzarət-kassa aparatlarından istifadə edilməsi dayandırıldıqda əhali ilə pul hesablaşmalarının qeydiyyatının aparılması qaydalarının pozulmasına görə vergi ödəyicisinə böyük məbləğdə cərimələr tətbiq olunur. Artıq bu cərimələrin bir neçə dəfə artırılması ilə bağlı Vergi Məcəlləsinə təklif edilən əlavə və dəyişikliklər Milli Məclis tərəfindən qəbul olunub».

Hüquqşünas bildirir ki, qəbz - NKA tətbiq edilməyən fəaliyyət növləri ilə məşğul olan vergi ödəyiciləri tərəfindən nağd pul hesablaşmalarının aparılmasında istifadə edilən, maliyyə-təsərrüfat fəaliyyətində əmtəə-pul dövriyyəsini özündə əks etdirən, forma və rekvizitləri Maliyyə Nazirliyi tərəfindən təsdiq edilən xüsusi seriya və nömrəsi olan ilkin uçot sənədidir. Qəbzdə sifarişçi fiziki şəxsin adı, soyadı, atasının adı və VÖEN-i, hüquqi şəxsin isə adı və VÖEN-i, qəbzi çap edən şəxsin adı və VÖEN-i, bu blankları təkrar çapdan müdafiə etmək məqsədilə gizli nişanları (xüsusi emblemi, toru, qoloqramı, su nişanları, xüsusi gizli nişanlarından istifadə etməklə blankların müxtəlif yerlərində şəxsin adı və VÖEN-i), qəbzin adı, seriya və nömrəsi, təsərrüfat əməliyyatlarının məzmununu və ölçülərini əks etdirən məlumat qrafaları kimi zəruri rekvizitlər əks etdirilməlidir.



> Satıcılar mal satarkən istehlakçıya qəbz, kassa çeki və ya digər yazılı sənəd verməyə borcludurlar

Azərbaycan Respublikası Mülki Məcəlləsinin və «İstehlakçı hüquqlarının müdafiəsi haqqında» Qanunun tələblərinə görə, alıcı aldığı malı dəyişdirə bilər. Əgər satıcıda dəyişdirmək üçün zəruri mal yoxdursa, alınan mal mağazaya qaytarılır və alıcının ödədiyi pul tam məbləğdə özünə verilir. İstehlakçı qeyri-ərzaq malını aldığı andan 14 gün ərzində onu geri qaytarmaq hüququna malikdir.

**Fəxriyyə İKRAMQIZI**

# Çirkli pulların yuyulmasına qarşı mübarizə tədbirləri gücləndirilir

Vergilər Nazirliyində hüquq, mühasibatlıq və vergi məsləhətləri xidmətləri göstərən şəxslər üçün təlim keçilib. Nazirliyin İkitərəfli və çoxtərəfli sazişlərin icrasına nəzarət departamentinin Maliyyə institutlarında vergi monitorinqi şöbəsinin rəhbəri Səfərəli Cavadov «Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Qanunun tələbləri və onun icrası ilə bağlı digər normativ sənədlər barədə təlim iştirakçılarına məlumat verib.

Qeyd olunub ki, hüquqi xidmət göstərən digər şəxslərə münasibətdə yoxlama nəticəsində qanun pozuntusu aşkar edilərsə, vergi orqanları tərəfindən İnzibati Xətalar Məcəlləsinin 598-ci maddəsi ilə tənzimlənir. Məcəllənin həmin maddəsində qeyd olunub ki, monitorinqdə iştirak edən digər şəxslərə münasibətdə hüquqi xidmətləri, mühasibat və vergi məsləhəti xidmətləri göstərən digər şəxslərə münasibətdə Vergilər Nazirliyinin vəzifəli şəxsləri tərəfindən protokol tərtib olunur.

Monitorinqlər göstərir ki, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı aparılan mübarizəyə baxmayaraq, bəzi subyektlərdə hələ də ciddi nöqsanlara rast gəlinir. Araşdırmalar göstərir ki, nöqsanlar, əsasən, özünüqiymətləndirmə sorğu cədvəlinin tərtibi, eyniləşdirmə, verifikasiya, bu sahə üzrə aidiyyəti sənədlərin gecikdirilməsi, daxili nəzarət sisteminin düzgün qurulmaması və bir sıra digər öhdəliklərə riayət olunmaması səbəbindən baş verir. Vergilər Nazirliyi bu məqsədlə nəzarət olunan subyektlərdə davamlı olaraq maarifləndirici tədbirlər həyata keçirir. Bununla bağlı hazırlanmış tövsiyəverici xarakterli metodiki vəsait nazirliyin rəsmi internet səhifəsində yerləşdirilib.

Təlim zamanı iqtisadi sahədə törədilmiş hüquq pozuntularına, terrorçuluğun maliyyələşdirilməsinə yönəldilmiş pulların yuyulması, cinayət yolu ilə əldə edilmiş pulların və ya digər əmlakın leqallaşdırılmasına (yuyulmasına) qarşı görülən tədbirlərin nəzəri aspektləri diqqətə çatdırılıb, praktiki fəaliyyətdə qarşıya çıxan məsələlər əsasında araşdırmalar aparılıb, tövsiyələr verilib. Nəzarət olunan subyektlərin nümayəndələri isə, öz növbələrində, bu sahədə işlərin daha da optimallaşdırılması, gündəlik fəaliyyətləri zaman yaranan çətinliklərin həlli məqsədilə nazirliyin aidiyyəti məsul şəxsləri ilə əməkdaşlığa dair təkliflərini irəli sürüblər.

**ELBRUS**

# Mənfəət vergisi

Mənfəət vergisinin ödəyicisi kimi vergi uçotuna alınmış hüquqi şəxs hesabat ili ərzində əldə etdiyi mənfəətdən 20 faiz dərəcə ilə mənfəət vergisini hesablamalıdır. Mənfəət dedikdə, əldə olunan vergi tutulan gəlirlərlə bu gəlirləri əldə etmək üçün çəkilən xərclərin fərqi başa düşülür. Verginin məbləği «Mənfəət vergisinin bəyannaməsi» ilə hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına bəyan edilməlidir.

***Mövcud qanunvericilik kimləri mənfəət vergisindən azad edir?***

Maraq doğuran məsələlərdən biri mənfəət vergisi üzrə öhdəliklərdən azad edilən şəxslər üçün nəzərdə tutulmuş güzəştlərdən və həmin güzəştlərin kimlərə şamil olunmasıdır. Deyildiyi kimi, mənfəət vergisi gəlirlərin mənfəət hissəsindən hesablanmış vəsaitdir, vergidən azad olunan gəlir mənfəət vergisinə daxil edilmir. Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq yaradılmış hüquqi şəxslərin sərbəst balansa, cari və ya digər hesablara malik olan filialları, struktur bölmələri və ya digər ayrıca bölmələri mənfəət vergisinin ödəyiciləri deyil.

Mövcud qanunvericiliyə əsasən, aşağıda sadalananlar mənfəət vergisindən azaddırlar:

- xeyriyyə təşkilatlarının gəliri (sahibkarlıq fəaliyyətindən əldə edilən gəlir istisna olmaqla);
- qeyri-kommersiya təşkilatlarının aldıqları əvəzsiz köçürmələr, üzvlük haqları və ianələr;
- beynəlxalq, dövlətlərarası və hökumətlərarası təşkilatların gəlirləri (sahibkarlıq fəaliyyətindən əldə edilən gəlir istisna olmaqla);
- dövlət hakimiyyət orqanlarının, büdcə təşkilatlarının və yerli özünüidarəetmə orqanlarının gəlirləri (sahibkarlıq fəaliyyətindən gəlir istisna olmaqla);
- Azərbaycan Respublikasının Mərkəzi Bankının, onun qurumlarının, maliyyə bazarlarına nəzarət orqanının, «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» publik hüquqi şəxsin, dövlət adından yaradılan səhiyyə (tibb) müəssisələrinin və Dövlət Neft Fondunun, habelə Əmanətlərin Sığortalanması Fondunun gəlirləri;
- alınmış sığorta ödənişləri (həmin sığorta hadisəsi ilə əlaqədar zərərə aid edilən məbləğlərdən başqa);
- sağlamlıq imkanları məhdud şəxslərin təhsil alması üçün yaradılmış xüsusi təhsil müəssisələrinin gəliri (sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirdən başqa);
- Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən dövlət büdcəsinə olan vergi borclarının silinməsindən əldə edilən gəlirlər;
- Azərbaycan Respublikası Prezidenti tərəfindən müəyyən edilmiş hallarda hüquqi şəxsin qərarı ilə onun özünün və onun tam mülkiyyətində olan rezident törəmə müəssisələrinin birinin balansından digərinin balansına əvəzsiz olaraq verilən aktivlərin dəyəri, habelə Azərbaycan Respublikası Prezidentinin qərarına əsasən bir hüquqi şəxsin balansından əvəzsiz olaraq digər şəxsin balansına verilmiş əsas vəsaitlərin dəyəri;
- neft-qaz ehtiyatlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü, ixrac boru kəmərləri haqqında və bu qəbildən olan digər sazişlərə uyğun olaraq əsas fondların, daşınar əmlakın və digər aktivlərin hər hansı şəkildə həmin sazişlərdə Azərbaycan Respublikasını təmsil edən tərəfə təqdim olunması üzrə əməliyyatlar;
- Azərbaycan Respublikası Prezidentinin qərarına əsasən yaradılan sənaye, yaxud texnologiyalar parklarının idarəedici təşkilatının və ya operatorunun mənfəətinin bu parkların infrastrukturunun tikintisinə və saxlanılmasına yönəldilmiş hissəsi, habelə həmin parkların rezidenti olan hüquqi şəxslərin bu parklarda qeydiyyata alındığı hesabat ilindən başlayaraq 7 il müddətinə qeyd olunan fəaliyyətdən əldə etdikləri gəlir;
- əlillərin və ya sağlamlıq imkanları məhdud uşaqların ictimai təşkilatlarına məxsus olan, işçilərinin ümumi sayının azı 50 faizi əlillərdən və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərdən ibarət olan istehsal müəssisələrinin mənfəət vergisinin dərəcəsi 50 faiz azaldılır. Güzəşt hüququ müəyyən edilərkən işçilərin orta siyahı sayına əvəzçilik, podrat müqavilələri və mülki-hüquqi xarakterli digər müqavilələr üzrə işləyən əlillər və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslər daxil edilmir;
- 01.01.2019-cu il tarixədək kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən sənaye üsulu ilə) hüquqi şəxslərin yalnız bu fəaliyyətdən əldə etdikləri gəlirlər;
- 01.01.2014-cü il tarixdən başlayaraq 10 il müddətinə körpələr evləri, körpələr evi-uşaq bağçaları, uşaq bağçaları, xüsusi uşaq bağçaları və uşaq evlərinin bu fəaliyyətdən əldə etdikləri gəlirləri;
- «Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında» Qanuna uyğun şəkildə ödənilən kompensasiya;
- investisiya təşviqi sənədini almış hüquqi şəxsin həmin sənədi aldığı tarixdən 7 il müddətinə əldə etdiyi mənfəətin 50 faizi.

***Hazırladı:***
**E.SALAHOV**

# Sərnişin daşımalarından vergi daxilolmaları

## Əsas hədəf şəffaflığı təmin etmək, vergidən yayınma hallarının qarşısını almaqdır

İstənilən ölkənin dinamik və keyfiyyətli inkişafı sahibkarlıq mühitinin əlverişliliyindən, özəl sektorun fəaliyyət dairəsinin genişləndirilməsindən çox asılıdır. Lakin sahibkarlığın inkişafına geniş meydan verilməsi bəzi hallarda qanunsuz fəaliyyətlə məşğul olmaq istəyənlərin də əl-qolunu açır. Azərbaycanda da bəzi işbazlar ölkədəki əlverişli biznes mühitindən sui-istifadə edərək vergi orqanlarında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olurlar. Bu cür qanunsuzluqlar sərnişin və yük daşımaları sahəsində də özünü büruzə verir. Xüsusilə şəhərlərarası və rayondaxili sərnişindaşıma fəaliyyəti göstərən sürücülər əksər hallarda vergi və digər nəzarət orqanlarında qeydiyyatdan yayınmaqla əldə etdikləri gəlirlərini gizlədirlər.



Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəisi Həbib Həsənov «Vergilər» qəzetinə müsahibəsində yük və sərnişindaşıma sahəsində qanunsuz sahibkarlıq, vergidən yayınma hallarına qarşı mübarizə tədbirlərindən danışıb:

- Heç kimə sirr deyil ki, bir çox xidmət sahələrində olduğu kimi, avtomobil nəqliyyatı sahəsində, xüsusilə də yük və sərnişindaşımada müəyyən problemlər mövcuddur. Buraya qeyri-qanuni daşımalardan tutmuş vergidən yayınma hallarına qədər ən müxtəlif hüquq pozuntuları daxildir. Son vaxtlar bu sahədəki problemlərin aradan qaldırılması, xidmətin keyfiyyətinin yüksəldilməsi, şəffaflığın təmin edilməsi istiqamətində kompleks tədbirlər görülür. Bu ilin iyununda Vergilər Nazirliyi ilə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi arasında imzalanmış Razılaşma Protokoluna əsasən, avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarında vergi nəzarətinin gücləndirilməsi nəzərdə tutulur. Artıq bu istiqamətdə müvafiq addımlar atılır. Buraya avtomobil nəqliyyatı ilə yük daşımaları sahəsində elektron əmtəə nəqliyyat qaiməsinin yaradılan «E-nəqliyyat» sisteminə inteqrasiyası, şəhərlərarası (rayonlararası) və Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin tənzimləmə dairəsinə düşən şəhərdaxili (rayondaxili) müntəzəm avtobus marşrutlarında nağdsız ödəniş sistemlərinin tətbiqi, eyni zamanda taksi daşımalarının milli taksi-çağırı proqram təminatı əsasında tənzimlənməsi daxildir. Bu məqsədlə bir sıra nüfuzlu məsləhətçi şirkətlərlə müzakirələr aparırıq. Bununla yanaşı, avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımaları sahəsində vergi qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı müvafiq normativ hüquqi aktların layihələrinin hazırlanması istiqamətində tədbirlər görülür. Əsas hədəfimiz daşımalarda iştirak etmək istəyən fiziki və hüquqi şəxslərə biznesin bu sahəsi ilə məşğul olmaq üçün kriteriya, standart və tələblərin normativ bazasının müəyyənləşdirilməsi, sağlam rəqabət mühiti formalaşdırmaqla xidmətin keyfiyyətini yüksəltmək, şəffaflığı təmin etmək, vergidən yayınma hallarının qarşısının alınmasına nail olmaqdır.

**- Daşımalarda tənzimləmə mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı hansı yeniliklər gözlənilir?**

- Etiraf etməliyik ki, digər dövlətlərin təcrübəsi ilə müqayisə etdikdə, Azərbaycanda istər sərnişin, istərsə də yük daşımaları sahəsində tənzimləmə mexanizmləri nisbətən zəifdir. Bildiyiniz kimi, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə və Nazirlər Kabinetinin 2006-cı il 9 fevral tarixli qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarına görə verginin ödənilməsi xüsusiyyətləri, habelə «Fərqlənmə nişanı» və «Xüsusi fərqlənmə nişanı»nın tətbiq edilməsi Qaydaları»na əsasən, avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarına görə verginin ödənilməsi xüsusiyyətlərindən asılı olaraq, sadələşdirilmiş vergi kimi «Fərqlənmə nişanı» və «Xüsusi fərqlənmə nişanı» tətbiq edilir. Həmin Qaydaların 1.3-cü bəndinə görə, avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyicilərinə (Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşımanı həyata keçirən vergi ödəyiciləri istisna olmaqla) «Fərqlənmə nişanı» və «Xüsusi fərqlənmə nişanı» Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyinə həvalə olunub. «Fərqlənmə nişanı» və «Xüsusi fərqlənmə nişanı» alan sahibkarlar sadələşdirilmiş verginin ödəyiciləridir. Bu sahənin tənzimlənməli olan digər vacib elementləri, məsələn, daşıyıcıların maddi-texniki bazası, nəqliyyat vasitələrinin texniki vəziyyəti, sürücülərin və menecerlərin hazırlığı və digər məsələlər isə hələ ki, açıq qalır. Bütün bunlar isə daşıma xidmətlərinin keyfiyyətinə və təhlükəsizliyinə mənfi təsir göstərir. Əgər biz avtomobil nəqliyyatında yük və sərnişin daşımalarının keyfiyyətini yüksəltmək istəyiriksə, hər şeydən əvvəl, bu cür çatışmazlıqların aradan qaldırılmasına nail olmalıyıq. Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin bununla bağlı hazırladığı təkliflər, bir sıra normativ hüquqi aktlara ediləcək dəyişikliklərə dair layihələr aidiyyəti qurumlara təqdim olunub.

**- Bölgələrdə avtobuslarla sərnişindaşıma xidməti göstərən sürücülər vergi orqanlarında qeydiyyata alınmaq üçün nə etməlidirlər?**

- Bölgələrdə avtobuslarla sərnişin daşımaları həyata keçirmək istəyən şəxslər vergi qanunvericiliyinin tələblərinə uyğun olaraq, ilk növbədə «ASAN xidmət» mərkəzlərinə və ya Vergilər Nazirliyinin müvafiq qurumlarına müraciət edərək, həmçinin Vergilər Nazirliyi tərəfindən yaradılmış «Bir pəncərə» vasitəsilə vergi ödəyicisi kimi qeydiyyatdan keçməli və VÖEN almalıdırlar. Eyni zamanda, avtobus marşrutunda xidmət göstərmək üçün Dövlət Avtomobil Nəqliyyatı Xidməti ilə marşrut xəttinin istismarına dair müqavilə bağlanmalıdır. Bundan sonra həmin şəxslər Nazirlər Kabinetinin «Azərbaycan Respublikasında avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarına görə verginin ödənilməsi xüsusiyyətləri, habelə «Fərqlənmə nişanı» və «Xüsusi fərqlənmə nişanı»nın tətbiq edilməsi Qaydaları»na əsasən təqvim ayının sonunadək öz istəklərinə uyğun olaraq növbəti ay, rüb, yarımil və ya il üçün «Fərqlənmə nişanı» almalıdırlar. Bölgələrdə fəaliyyət göstərən daşıyıcılar müvafiq qaydada uçota alınmaq və «Fərqlənmə nişanı» əldə etmək üçün Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin müvafiq yerli qurumlarına müraciət etməlidirlər.

**- Daşıyıcılar arasında sağlam rəqabət mühitinin formalaşdırılması istiqamətində hansı addımlar atılır?**

- Qeyd etmək lazımdır ki, dünyada yeni texnologiyaların, mobil aqreqatorların tətbiqi hətta ən inkişaf etmiş ölkələrdə belə sağlam rəqabət mühitini qorumaq üçün dövlət-sahibkar münasibətləri modelinə yenidən baxılmasını zəruri edir. Hazırda avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarında sağlam rəqabət mühitinin qorunması bizim üçün də vacib amillərdəndir. Diqqət yetirilməli olan prioritet istiqamətlərdən biri də qanunauyğun şəkildə fəaliyyət göstərən daşıyıcılara münasibətdə haqsız üstünlük əldəetmə imkanlarının qarşısını almaqdır. Daşıma xidmətlərinin təşkilində qeyri-sağlam rəqabətin məhdudlaşdırılması üçün ən vacib amil vergidən yayınma hallarının aradan qaldırılmasıdır. Bunun üçün Dövlət Avtomobil Nəqliyyatı Xidməti öz səlahiyyətləri çərçivəsində müəyyən tədbirlər görür. Son 3 ilin müvafiq göstəricilərini müqayisə etsək görərik ki, avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımaları sahəsində vergiyə cəlbetmə dinamikası artan xətt üzrə inkişaf edib. Təqdirəlayiq haldır ki, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Vergilər Nazirliyi arasında imzalanmış Razılaşma Protokolu vergidən yayınma hallarının tamamilə aradan qaldırılması və daşıyıcılar arasında sağlam rəqabət mühitinin formalaşdırılması məqsədilə müasir informasiya-kommunikasiya texnologiyalarının imkanlarından istifadə etməklə kompleks tədbirlərin görülməsini nəzərdə tutur. Eyni zamanda, sərnişindaşımada haqsız rəqabətin aradan qaldırılması üçün Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin yerli qurumlarının əməkdaşları mütəmadi olaraq bölgələrdə fəaliyyət göstərən daşıyıcılarla görüşlər keçirir, maarifləndirmə işləri aparırlar. Bu işlərdə Vergilər Nazirliyinin yerli qurumlarının əməkdaşları da bizə yaxından kömək göstərirlər.

**- Sərnişindaşıma xidməti göstərən sürücülər vergi öhdəliklərini hansı səviyyədə yerinə yetirirlər?**

- Avtobusla müntəzəm və qeyri-müntəzəm sərnişindaşıma fəaliyyəti göstərən daşıyıcıların vergiyə cəlb olunmasında elə də ciddi çətinliyimiz yoxdur. Əsas problemlər oturacaq yerlərinin sayı 8+1 və ondan az olan miniven tipli minik avtomobilləri ilə həm ölkədaxili, həm də beynəlxalq istiqamətlər üzrə sifarişli sərnişin daşımalarının tənzimlənməsi ilə bağlıdır. Belə daşımalarda sərnişinlərin təhlükəsizliyinin və qanuni maraqlarının qorunması, daşıyıcıların vergiyə cəlb edilməsi müəyyən çətinliklər yaradır. Bu məsələnin həlli məqsədilə daşımalar həyata keçirilən tərəfdaş dövlətlərin aidiyyəti qurumları ilə məsləhətləşmələr aparılır, onların təcrübəsi öyrənilir, ortaya çıxan probemlərin aradan qaldırılması üçün təkliflər hazırlanır.

**- Bu sahədə fəaliyyət göstərən sahibkarlar vergidən yayındıqları təqdirdə, onları hansı inzibati cəzalar gözləyir?**

- Vergi Məcəlləsinin 58.2-ci maddəsinə əsasən, «Fərqlənmə nişanı» olmadan avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və ya yük daşınmasına görə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir. Amma sərnişin və yük daşımaları sahəsində vergidən yayınmaya görə maliyyə sanksiyasının tətbiqi ilə bağlı müvafiq tədbirlərin görülməsinin Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin səlahiyyətlərinə aid olmaması müəyyən çətinliklər yaradır. Hazırda Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Vergilər Nazirliyi arasında imzalanmış Razılaşma Protokoluna uyğun olaraq, vergidən yayınma hallarının qarşısının alınması məqsədilə məsuliyyət müəyyən edən yeni normaların və nəzarət mexanizmlərinin hazırlanması istiqamətində işlər görülür. Eyni zamanda, yük və sərnişindaşıma xidməti göstərən sürücülərin vergidən yayınması hallarının aradan qaldırılması məqsədilə Baş Dövlət Yol Polisi İdarəsi ilə birgə mütəmadi reydlər keçirilir.

> Bu ilin sentyabr ayında sərnişindaşıma xidmətlərindən dövlət büdcəsinə 284.641,81 manat daxil olub

**- Sərnişindaşıma xidmətlərindən daxil olan vergi ödənişləri barədə ümumi tendensiya necədir: ən çox və ən az vergi ödənişləri hansı rayonların payına düşür?**

- Bu ilin sentyabr ayında sərnişindaşıma xidmətlərindən dövlət büdcəsinə 284.641,81 manat daxil olub (2017-ci ilin sentyabrında bu göstərici 255.815,81manat təşkil edib). Respublika üzrə verilmiş fərqlənmə nişanlarının sayına gəlincə, bu, regionlar üzrə bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir. Ümumi statistikaya əsasən, 2018-ci ilin sentyabrında ən çox fərqlənmə nişanı Abşeron rayonunda, ən az isə Quba rayonunda verilib.

**Elxan SALAHOV**

## ELAN

Ötən ilin sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın yeni tarifinin tətbiqinə başlanılmışdır.

Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədilə yeni tarif müəyyən olunmuşdur. Tarif «Asan İmza» dövlət və ya bələdiyyə sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.

«ASAN İmza» ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin **«195-1»** Çağrı Mərkəzinə, **ww.taxes.gov.az** və **www.asxm.gov.az** internet ünvanına müraciət edə bilərsiniz.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## BİR CÜMLƏ - BİR XƏBƏR

Azərbaycanla Fransa arasında kənd təsərrüfatı sahəsində elmi tədqiqatların aparılmasına dair razılıq əldə olunub.

Bu gün Astanada Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 15-ci iclası öz işinə başlayır.

Ölkəmizdə ilk dəfə olaraq keçirilən beynəlxalq «İnnovasiyalar həftəsi» çərçivəsində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Yüksək Texnologiyalar Parkı ilə Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində fəaliyyət göstərən «AstroLabs» akseleratoru arasında birgə əməkdaşlığa dair memorandum imzalanıb.

Noyabrın 15-16-da Bakıda «Nağdsız iqtisadiyyat: ənənəvi bankçılıqdan rəqəmsal bankçılığa keçid» adlı III Beynəlxalq Bankçılıq Forumu keçiriləcək.

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

### Əmək müqaviləsinin rəsmiləşdirilməsi

İşə qəbul olunarkən işəgötürənlərdən əmək müqaviləsinin bağlanmasını tələb edin. Əmək müqaviləsi ilk növbədə sosial maraqlarınızın təmin olunmasına xidmət edir və rəsmiləşdirilməmiş əmək fəaliyyətinə razılaşmaqla Siz gələcəkdə dövlətin sosial təminatından və bir sıra üstünlüklərdən məhrum olursunuz.

| İşçinin hüquqları və üstünlükləri | Əmək müqaviləsi ilə fəaliyyət göstərdikdə | Əmək müqaviləsiz fəaliyyət göstərdikdə |
|---|---|---|
| 8 saatlıq iş hüququ | ✓ | ✗ |
| Əmək məzuniyyətindən istifadə hüququ | ✓ | ✗ |
| Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ | ✓ | ✗ |
| Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ | ✓ | ✗ |
| Gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı | ✓ | ✗ |
| İpoteka və digər kreditləri almaq imkanı | ✓ | ✗ |
| Məhkəmədə hüquqların müdafiəsi | ✓ | ✗ |

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və rəsmi əməkhaqqı ödəməyi tələb etməklə Siz gələcəyinizi indidən düşünmüş olursuz. Unutmayın ki, Sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlidir!

**Bununla bağlı hüquqlarınız pozularsa, vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya «195-1» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## İŞƏGÖTÜRƏNLƏRİN NƏZƏRİNƏ!

### Əmək müqaviləsinin rəsmiləşdirilməsi

İşəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə ilkin olaraq fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalı, bundan sonra əmək müqaviləsinin məlumatlarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edərək onun hüquqi qüvvəyə minməsi üçün müvafiq bildiriş əldə etməlidir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən «ASAN imza»sı olmalıdır. «ASAN imza» SİM kartını mobil operatorların («Azercell», «Bakcell», «Nar Mobile») nümayəndəliklərindən əldə edib, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə «ASAN imza» sertifikatı ala bilərsiniz.

**İşəgötürən tərəfindən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur:**

| Qanun pozuntuları | Məsuliyyət tədbirləri |
|---|---|
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə (Vergi Məcəlləsi, maddə 58.10) | hər bir belə işçi üzrə **1.000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (İnzibati Xətalar Məcəlləsi, maddə 192.1) | fiziki şəxslər **1.000 manatdan 2.000 manatadək** miqdarda, vəzifəli şəxslər **3.000 manatdan 5.000 manatadək** miqdarda, hüquqi şəxslər **20.000 manatdan 25.000 manatadək** miqdarda inzibati cərimə edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (Cinayət Məcəlləsi, maddə 162-1.1)<br><br>Eyni əməllər təkrar törədildikdə (Cinayət Məcəlləsi, maddə 162-1.2) | **7.000** manatdan **10.000** manatadək miqdarda cərimə və ya **2 ilədək müddətə islah işləri** və ya **2 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır.<br><br>**3 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır. |

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195-1»Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Mənzil satışı: dövlət rüsumu və sənədləşmə

## Yaşayış sahələrinin alğı-satqısı üzrə tələb olunan dövlət rüsumları və vergilər notariuslar vasitəsilə ödənilir

2016-cı ildən Azərbaycanda mənzil alğı-satqısı ilə bağlı qaydalara edilən dəyişikliyə əsasən, bina tikintisi ilə məşğul olan və sadələşdirilmiş qaydada vergi ödəyən şəxslər üzrə vergitutma bazası genişləndirilib. Vergi Məcəlləsinin 218-ci maddəsinə edilmiş dəyişikliklərə uyğun olaraq, mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslər 2016-cı il yanvarın 1-dən sadələşdirilmiş vergiyə cəlb olunur və notarius tərəfindən ödəmə mənbəyində tutularaq dövlət büdcəsinə ödənilir. Mənzil alğı-satqısı zamanı fiziki şəxslər satışa çıxarılan şəxsi mülkün hər kvadratmetrinə görə 15 manat məbləğində sadələşdirilmiş vergini ödəməlidirlər. Satılan mənzil Bakı şəhəri, habelə onun qəsəbə və kəndlərində yerləşirsə, bu məbləğə Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş zonalara uyğun əmsallar tətbiq edilir. Bu zaman yerli notariuslar tərəfindən hesablanmış vergilər mənzilini satışa çıxaran mülkiyyətçinin hesabından tutularaq büdcəyə ödənilir.

> «İcbari sığortalar haqqında» Qanuna əsasən, hüquqi və fiziki şəxslərə məxsus daşınmaz əmlakın sığortası icbaridir. Daşınmaz əmlakın icbari sığortası dövlət qeydiyyatı olan istənilən sığorta şirkətində və ya «ASAN xidmət» mərkəzlərində həyata keçirilə bilər

Yaşayış sahələrinin, yəni mənzillərin alğı-satqısı üçün tələb olunan ilkin sənəd mülkiyyətin faktiki və gələcək sahibi arasında bağlanmış alğı-satqı müqaviləsidir. Daşınmaz əmlakın alğı-satqı müqaviləsinin təsdiqi üçün zəruri olan sənədlər bunlardır:

- əmlak üzərində mülkiyyət hüququnu təsdiq edən sənəd (çıxarış);
- əmlak üzərində yüklülüyün və ya həbsin olub-olmaması barədə Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətindən arayış;
- mülkiyyətçi nikahdadırsa, nikah haqqında şəhadətnaməsi;
- daşınmaz əmlakın satılmasına ərin (arvadın) notariat qaydasında təsdiq edilmiş razılığı;
- yaşayış evində, mənzildə, bağda və bağ evində yaşayış yeri üzrə qeydiyyatda olması barədə qeydiyyatda olan yetkinlik yaşına çatmış bütün ailə üzvlərinin razılığı.

Alğı-satqı müqaviləsinin imzalanması prosesində satışa çıxarılan əmlakın mülkiyyətçisi və ya notariat qaydasında təsdiq edilmiş etibarnamə əsasında onun nümayəndəsi ilə alıcı və ya notariat qaydasında təsdiq edilmiş etibarnamə əsasında onun nümayəndəsi iştirak etməlidir. Mənzilin alğı-satqısına dair müqavilə imzalanarkən aşağıdakı qaydada və məbləğdə dövlət rüsumu və xidmətə görə haqq ödənilməlidir:

- müqavilə üzrə əmlak ərə (arvada), uşaqlara, valideynlərə, babaya, nənəyə, nəvəyə, qardaşa, bacıya keçirsə - dövlət rüsumu 20 manat, xidmətə görə tutulan haqq 3 manat;
- müqavilə üzrə əmlak başqa şəxslərə keçirsə - dövlət rüsumu Bakı şəhərində 250 manat, xidmətə görə tutulan haqq 37,5 manat, Sumqayıt, Gəncə şəhərləri və Abşeron rayonunda dövlət rüsumu 175 manat, xidmətə görə tutulan haqq 26,25 manat, digər şəhər və rayonlarda dövlət rüsumu 125 manat, xidmətə görə tutulan haqq 18,75 manat.

Yaşayış sahələrinin alğı-satqısı zamanı tələb olunan dövlət rüsumları da hesablanmış vergilərdə olduğu kimi, notariuslar tərəfindən tutulur. Mənzilini barter üsulu ilə dəyişmək istəyənlər də eyni qaydada sənədləri toplamaqla müvafiq prosedurlardan keçməli və yuxarıda göstərilən məbləğlərdə dövlət rüsumu və xidmət haqqı ödəməlidirlər. Mülkiyyətində olan mənzili yaxın qohumuna bağışlayanlar da Mülki Məcəllənin 146-cı maddəsində nəzərdə tutulan prosedurlardan keçməklə lazım olan sənədləşməni həyata keçirə bilərlər. Qanunvericiliyin bu tələbinə əsasən, daşınmaz əmlak üzərində sərəncam vermək hüququ həmin əmlakın dövlət reyestrində ərazilər üzrə qeydiyyat tarixindən əmələ gəlir. Daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmamış daşınmaz əmlak barəsində bağlanmış əqdlər etibarsız sayılır. Mülki Məcəllənin 668.1-ci maddəsinə əsasən, daşınmaz əşyaların və ya həmin əşyalara hüquqların bağışlanması zamanı bağışlama müqaviləsi yalnız notariat qaydasında təsdiqləndikdən sonra etibarlı hesab olunur. Yaxın qohumun adına olan ev notariat qaydasında təsdiq edilmiş bağışlama müqaviləsi əsasında digər yaxın qohuma bağışlana bilər. Həmin ev üzərində mülkiyyət hüququ bağışlama müqaviləsi əsasında Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin müvafiq ərazi idarəsində qeydiyyata alınır.

**Elxan SALAHOV**

# Elektron vergi hesab-fakturası və ödəmə funksiyaları

**Vergi ödəyicilərinin rahatlığının təmin edilməsi, vergi orqanı ilə ödəyici arasında canlı təmasın, uzun sürən sənədləşmə prosedurlarının minimuma endirilməsi məqsədilə Vergilər Nazirliyi tərəfindən davamlı olaraq vergi xidmətlərinin elektron versiyası hazırlanaraq istifadəyə verilır. ƏDV üzrə yayınmaların qarşısının alınması və bu sahəyə avtomatlaşdırılmış nəzarətin həyata keçirilməsi üçün «ƏDV-nin depozit hesabı» altsistemi yaradılıb. Bu altsistemin istifadəçilərə yaratdığı üstünlükləri bank mütəxəssisi Yusif Abdullayev şərh edir.**

Vergi ödəyicisinə verilmiş vergi elektron hesab-fakturası üzrə alınmış malların, iş və xidmətlərin dəyəri ödənilərkən ƏDV-nin ödənilməsi, ƏDV-nin depozit hesabında uçotun aparılması, ƏDV-nin hərəkəti, bu hesab üzrə aparılan əməliyyatlardan ƏDV-nin əvəzləşdirilməsi və dövlət büdcəsinə köçürülmə işlərinin yerinə yetirilməsi bu sistem vasitəsilə həyata keçirilir. Məqsəd alıcı vergi ödəyicisi tərəfindən elektron vergi hesab-fakturası təqdim etmiş satıcı vergi ödəyicisinin ƏDV depozit sub-uçot hesabına ödəmə əməliyyatlarının aparılmasının istifadəçilərə öyrədilməsidir. Burada, həmçinin, köçürmə əməliyyatlarının hesabat axtarışı və hesabdan çıxarışı da şərh olunur.

Vergi ödəyicisi «İnternet Vergi İdarəsi» portalından istifadə edərək ƏDV-nin sub-uçot hesabından digər vergi ödəyicilərinin sub-uçot hesablarına və idxala görə Dövlət Gömrük Komitəsinə köçürmələri, dövlət büdcəsinə ödənişləri yerinə yetirir. Proqram yalnız ƏDV ödəyiciləri üçün nəzərdə tutulub. Həmin vergi ödəyiciləri, həmçinin, vergi orqanında qeydiyyatdan keçməli, istifadəçi kodu, parol və şifrəyə malik olmalıdırlar. Alınmış vergi hesab-fakturasına əsasən, alıcı vergi ödəyicisi öz ƏDV sub-uçot hesabından ƏDV məbləğini satıcı vergi ödəyicisinin ƏDV sub-uçot hesabına köçürür. Bu ödənişi aparmaq üçün vergi ödəyicisi vergi orqanından aldığı xüsusi parol-şifrə vasitəsilə İnternet Vergi İdarəsinə (www.e-taxes.gov.az) daxil olmalı və «ƏDV-nin depozit hesabı»menyusunu tıklamalıdır. Bu menyu köçürmə əməliyyatının aparılması, həmin əməliyyatların hesabat-axtarışı, hesabdan çıxarış kimi alt menyulardan ibarətdir.

Köçürmə əməliyyatlarını aparmaq üçün «ƏDV-nin depozit hesabı/Köçürmə əməliyyatlarının aparılması» menyusunu icra etmək lazımdır. Əməliyyatı alıcı vergi ödəyicisi aparmalıdır. Köçürmə əməliyyatları ekranına daxil olduqda ödəyən müştərinin sub-uçot hesabının qalığı, naməlum sub-uçot hesabının qalığı və ƏDV borcu sistem tərəfindən avtomatik olaraq ekranda görüntülənir. Ekran vasitəsilə digər sub-uçot hesaba köçürmə, büdcəyə ödəniş, naməlumdan digər sub-uçot hesaba köçürmə, naməlumdan idxala görə ƏDV köçürməsi, naməlumdan büdcəyə ödəniş, idxala görə ƏDV köçürməsi kimi əməliyyatlar aparıla bilər. İstifadəçi yuxarıdakı əməliyyatlardan birini seçir və əməliyyat başa çatdıqdan sonra vergi ödəyicisinə köçürmənin aparılması barədə bildirişin çap edilməsi təklif olunur. Bu zaman satıcı alıcıdan həmin bildirişi tələb edə bilər.

Digər sub-uçot hesaba köçürmə əməliyyatı qarşılıqlı əməliyyatlar zamanı alınmış vergi elektron hesab-fakturasına əsasən alıcı vergi ödəyicisinin öz ƏDV sub-uçot hesabından ƏDV məbləğini satıcı vergi ödəyicisinin ƏDV sub-uçot hesabına köçürülməsi məqsədilə aparılır. Alıcı vergi ödəyicisi «Digər sub-uçot hesaba köçürmə» bəndini seçir və satıcının VÖEN-i, ödənişin məbləğini, ödənişin təyinatı kimi məlumatları daxil edib «qəbul» düyməsini sıxır. Əməliyyatdan sonra köçürülən məbləğ alıcı vergi ödəyicisinin sub-hesabından satıcı vergi ödəyicisinin sub-hesabına köçürülür. Büdcəyə ödəniş əməliyyatı vasitəsilə vergi ödəyicisi ƏDV sub-uçot hesabından dövlət büdcəsinə ödənişi həyata keçirir ki, bunun üçün də əməliyyat növündən büdcəyə ödəniş əməliyyatı bəndi qeyd edilir. Siyahıdan alanın qeydiyyatda olduğu xəzinə orqanı seçilir, ödənişin məbləği, ödənişin təyinatı daxil edilir və «qəbul» düyməsi sıxılır. Nəticədə daxil edilmiş məbləğ vergi ödəyicisinin sub-uçot hesabından büdcəyə köçürülür.

ƏDV üzrə büdcəyə olan borclar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə ödənilmədiyi halda, bu məbləğ vergi ödəyicisinin sub-uçot hesabından avtomatik olaraq büdcəyə köçürülür. Bank vasitəsilə vergi ödəyicisi öz cari hesabından ƏDV məbləğini digər vergi ödəyicisinin sub-uçot hesabına köçürdüyü zaman ödəniş sənədində satıcı vergi ödəyicisinin VÖEN-i düzgün göstərilmədiyi və ya satıcı ƏDV ödəyicisi olmadığı hallarda, köçürülən məbləğ alıcı vergi ödəyicisinin naməlum sub-uçot hesabına mədaxil edilir.

**F. İKRAMQIZI**

# Dividenddən vergi tutulması

### Hüquqi şəxsin öz iştirakçılarına etdiyi ödənişlər hansı hallarda dividend sayılır və ondan vergi necə tutulur?

Vergi Məcəlləsinin (VM)_13.2.15-ci maddəsinə əsasən, dividend - hüquqi şəxsin öz təsisçilərinin (payçılarının) və yaxud səhmdarlarının xeyrinə xalis mənfəətinin (sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən vergi və xərclər çıxıldıqdan sonra gəlirin) bölüşdürülməsi ilə bağlı pul və ya digər ödəmələr şəklində etdiyi ödənişdir. Hüquqi və fiziki şəxslərə dividend ödəyən rezident hüquqi şəxslər və VM-in 125-ci maddəsində nəzərdə tutulan ödəmələr verən hüquqi şəxslər və ya sahibkarlar vergini ödəmə mənbəyində tutmağa borcludurlar.

Rezident müəssisə tərəfindən ödənilən dividenddən ödəmə mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur. Dividendin faktiki sahibi olan fiziki və hüquqi şəxslərdən yuxarıda qeyd edilən dərəcəyə uyğun olaraq vergi tutulmuşdursa, dividendi alan fiziki və hüquqi şəxslərin həmin gəlirindən bir daha vergi tutulmur və bu gəlir yenidən dividend şəklində verilən zaman vergiyə cəlb olunmur. Məcəllənin 122-ci maddəsinə əsasən, neft-qaz ehtiyatlarının kəşfiyyatı, işlənməsi, həmçinin hasilatın pay bölgüsü, ixrac boru kəmərləri haqqında və bu qəbildən olan digər sazişlər üzrə mənfəətin bölüşdürülməsi, habelə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş hallarda hüquqi şəxsin tam mülkiyyətində olan törəmə müəssisələrin xalis mənfəətinin həmin hüquqi şəxsin mərkəzləşdirilmiş fondunda cəmləşdirilməsi üzrə köçürmələr və bu şəxsin həmin gəliri vergiyə cəlb olunmur. Məcəllənin 125.1-ci maddəsində isə qeyri-rezidentin Azərbaycan mənbəyindən əldə olunan gəliri kimi müəyyən edilən və qeyri-rezidentin Azərbaycan ərazisindəki daimi nümayəndəliyinə aid olmayan ümumi gəlirindən ödəmə mənbəyində xərclər çıxılmadan dividenddən VM-in 122-ci maddəsində göstərilən dərəcə ilə vergi tutulur.

Dividenddən ödəmə mənbəyində vergi tutan şəxslər gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq vergini büdcəyə köçürməyə və həmin tarixədək müvafiq bəyannaməni Vergilər Nazirliyinin müəyyənləşdirdiyi formada vergi orqanına təqdim etməyə borcludurlar.

Vergi Məcəlləsinin 13.2.15-ci maddəsinə görə, hüquqi şəxsin ləğvi ilə bağlı əmlakın bölüşdürülməsi nəticəsində əldə olunan gəlir, həmçinin səhmdarların səhmlərinin faiz nisbətini dəyişdirməyən səhmlərin bölüşdürülməsi, səhmlərin (hissələrin, payların) nominal dəyəri hüdudlarında geri alınması ilə bağlı edilən ödənişlər dividend sayılmır.

**FƏXRİYYƏ**

## 2018-ci ilin noyabr ayı ərzində vergi orqanına təqdim edilməli bəyannamələr və ödənilməli vergilər barədə

## YADDAŞ

**2018-ci ilin oktyabr ayı üzrə vergi ödəyiciləri tərəfindən tədiyyəçisi olduqları**

- Əlavə dəyər vergisi bəyannaməsi,
- Aksiz bəyannaməsi,
- Yol vergisi bəyannaməsi,
- Mədən vergisi bəyannaməsi,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsi və
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsi

**cari ilin noyabr ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim edilməli və təqdim olunmuş bəyannamələr üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

- **Daşınmaz əmlakın** təqdim edilməsi üzrə sadələşdirilmiş verginin bəyannaməsi **cari ilin noyabr ayının 20-dən gec olmayaraq** vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).
- **Muzdlu işlə əlaqədar** 2018-ci ilin oktyabr ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi **cari ilin noyabr ayının 20-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməlidir *(ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri bəyannaməni illik - növbəti ildə yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri 2018-ci ilin 4-cü rübü üzrə bəyannaməni növbəti ildə yanvar ayının 21-dən gec olmayaraq təqdim edirlər)*.
- **Xüsusi notariusların** 2018-ci ilin oktyabr ayı üzrə hesabladıqları gəlir vergisi **cari ilin noyabr ayının 20-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməlidir *(2018-ci ilin 4-cü rübü üzrə bəyannamə növbəti ildə yanvar ayının 21-dən gec olmayaraq təqdim edilməlidir)*.

**Əmlak və torpaq vergisinin ödəyiciləri olan müəssisələr**

- 2018-ci il üzrə hesablanmış torpaq vergisinin qalanını (yarısını) cari ilin noyabr ayının 15-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
- 2018-ci ilin 4-cü rübü üzrə hesablanmış əmlak vergisinin cari ödəmələri noyabr ayının 15-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**Qeyd:** 20.01.2019-cu il qeyri-iş gününə təsadüf etdiyindən, həmin tarixdə təqdim edilməli bəyannamələrin son müddəti 21.01.2019-cu ilə keçirilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## Elektron qaimə-fakturanın tətbiqi barədə

## BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

**2018-ci il yanvarın 1-dən** etibarən, statusundan asılı olmayaraq, **bütün vergi ödəyiciləri** tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-faktura təqdim olunmalıdır.

Vergi Məcəlləsinə əsasən, sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim olunması ilə bağlı elektron qaimə-faktura vermək vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir.

«Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura «Onlayn rejimdə» Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən «Asan imza») vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə olunmaqla «Oflayn rejimdə» tərtib edildikdən və elektron imza (o cümlədən «Asan imza») vasitəsilə imzalandıqdan sonra malların, işlərin və xidmətlərin alıcısına göndərilir.

Odur ki, sahibkarlıq fəaliyyəti məqsədləri üçün mal (iş, xidmət) alınarkən həmin malların (işlərin, xidmətlərin) alınmasını təsdiq edən elektron qaimə-faktura satıcıdan tələb edilərək alınmalıdır.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda alıcıya təqvim ili ərzində belə hala

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və ya vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

# Yaponiyada satışdan verginin dərəcəsi artırılıb

Əslində, ölkənin dövlət borclarının artması sayəsində belə bir addımın atılacağı gözlənilən idi. 2019-cu ilin oktyabr ayından satışdan verginin dərəcəsinin 8 faizdən 10 faizə qədər artırılmasında əsas məqsəd bu problemin aradan qaldırılmasıdır.

Belə bir addımın atılması 2015-ci ilə nəzərdə tutulmuşdu, lakin hakim dairələr bunun ölkənin həssas iqtisadi həyatında böyük əks-səda yaradacağından ehtiyatlanaraq həmin planı iki dəfə təxirə salmışdılar. Hakimiyyəti ehtiyatlanmağa vadar edən başlıca səbəb isə 2014-cü ildə ölkə iqtisadiyyatında qeydə alınan resessiya olmuşdu.

Baş nazir Sindzo Abe belə hesab edir ki, zərbəni yüngülləşdirmək üçün qabaqlayıcı tədbirlər görməklə istehlakçı xərclərinin kəskin şəkildə aşağı düşməsinin qarşısını almaq mümkündür.

«Hökumət bütün mümkün tədbirləri görməklə iqtisadiyyata mənfi təsirlərin qarşısını almaq üçün möcud imkanlar çərçivəsində hər şeyi edəcək», - Nazirlər Kabinetinin baş katibi Yoşixid Suqa jurnalistlərə açıqlama verərkən bildirmişdir. Bununla belə, o, əlavə etmişdir ki, əgər iqtisadiyyatda qlobal səviyyədə, məsələn, 2008-ci ildə olduğu kimi, azalma baş verərsə, planlaşdırılan addımın təxirə salınması da istisna edilmir.

Onun sözlərinə görə, nəzərdə tutulan vergi artımının ərzaq mallarına tətbiq edilən satışdan vergiyə aidiyyəti olmayacaq. Bundan əlavə, ev və ekoloji baxımdan təmiz avtomobillər kimi bir sıra uzunmüddətli istifadə olunan mallar üçün satışdan verginin təsirini kompensasiya etmək məqsədilə subsidiyaların verilməsi planlaşdırılır.

Vergilərin artırılmasından əldə olunan gəlirlərin bir qismi isə pulsuz uşaq bağçalarının inkişaf etdirilməsinə yönəldiləcək ki, bununla da ailələrin maliyyə yükünün yüngülləşdirilməsi, eləcə də əhalinin sayı sürətlə azaldığına görə ailələrin daha çox uşaq dünyaya gətirib böyütməyə həvəsləndirilməsi nəzərdə tutulur.

Beynəlxalq Valyuta Fondunun rəhbəri Kristin Laqard isə xəbərdarlıq etmişdir ki, ölkənin üz-üzə gəldiyi problemlər Yaponiya əhalisinin yaşlanması davam etdikcə artacaq. O bildirmişdir ki, bu gedişlə qarşıdakı 40 il ərzində ölkənin həm iqtisadiyyatının miqyasının, həm də əhalisinin sayının 25 faiz azalacağı gözlənilir.

Bundan əlavə, Yaponiyanın borclardan qurtarmaq imkanında olmasına inamın itirilməsi faiz dərəcələrinin artmasına və müflisləşmə riskinin yüksəlməsinə gətirib çıxara bilər. Bundan əvvəl isə reytinq agentlikləri Yaponiyanın borclanma səviyyəsinə uyğun olaraq kredit qabiliyyətini aşağı salmışdılar.

# Türkiyə parlamentində gələn ilin büdcə planı müzakirə edilir



Xəzinə və maliyyə naziri Berat Albayrak Türkiyə Böyük Millət Məclisinin Plan və büdcə komissiyasında çıxış edərək gələn il üçün büdcə qanunu təklifi barədə açıqlama vermişdir.

Valyuta kursundakı artımın, enerji qiymətlərinin yüksəlməsinin, maliyyə hesabları ilə qiymətqoyma arasındakı və gözləntilərdəki tarazlığın pozulmasının inflyasiyanın artmasına təsir göstərdiyini vurğulayan nazir 2018-ci ilin sonunda istehlak inflyasiyasının 20,8 faiz səviyyəsində gözlənildiyini, Yeni İqtisadi Proqramın həyata keçiriləcəyi sayəsində bu rəqəmin 6 faizə endiriləcəyini bildirmişdir. O, cari büdcə kəsirinin bu ilin ikinci yarısında azalmaya doğru getdiyinə işarə edərək: «2018-ci ilin sonunda kəsirin 36 milyard lirə, ÜDM-ə nisbətinin isə 4,7 faiz olmasını gözləyirik», - demişdir.

Nazir Yeni İqtisadi Proqramda maliyyə intizamının iqtisadi siyasətin təməl daşı kimi müəyyənləşdirildiyini bəyan etmişdir. O, vergi gəlirlərinin 2018-ci ildə əvvəlcədən müəyyənləşdirilmiş proqnoz göstəricidən 31,1 milyard lirə artıq olacağını, ümumilikdə 630,5 milyard lirəyə çatacağını bildirmişdir. Bundan başqa, özəl istehlak vergisi gəlirlərinin büdcə proqnozundan 5,9 milyard lirə, daxildə alınan əlavə dəyər vergisi gəlirlərinin isə 5,8 milyard lirə az yığılacağını bildirmişdir.

Vergidənkənar gəlirlərin məbləğinin bu il üçün proqnozdan 21,7 milyard lirə artıq, yəni ümumilikdə 119 milyard lirə olacağını bildirən nazir demişdir: «Bunda dövlət banklarından əldə edilən depozit gəlirlərinin büdcədə nəzərdə tutulduğundan 4,4 milyard lirə artıq yığılacağı, eləcə də ödənişli əsgərlikdən 9 milyard lirə və «imar barışı»ndan - kommunal xidmətlərdən istifadə ilə bağlı islahatdan 6 milyard lirənin əldə ediləcəyi də təsirli olacaq».

Albayrak 2019-cu il üçün büdcə qanunu təklifində büdcə gəlirlərinin 961 milyard lirə, faizdənkənar xərclərin 843,7 milyard lirə, büdcə daxilolmalarının 880,4 milyard lirə, vergi gəlirlərinin 756,5 milyard lirə, büdcə kəsirinin 80,6 milyard lirə, faizdənkənar artığın 36,7 milyard lirə proqnozlaşdırıldığını bildirmişdir.

2019-cu il üzrə büdcə ödənişlərinin 2018-ci il ilə müqayisədə 26 faiz artıq nəzərdə tutulduğunu qeyd edən Albayrak bu artıma fərdi və sosial təminat qurumlarına dövlətin ayırdığı əlavələr üzrə xərclər, sosial təminat qurumu yaratmadan edilən transferlər, faiz xərclərinin və gəlirdən ayrılan payların da təsir göstərdiyini demişdir.

2019-cu ildə mərkəzi idarəetmə gəlirlərinin 17,4 faiz artaraq 880,4 milyard lirə olacağını gözlədiklərini bildirən nazir vergi gəlirlərinin 20 faiz artaraq 765,5 milyard lirəyə, vergidənkənar gəlirlərin isə 4 faiz artaraq 123,9 milyard lirəyə çatacağını bəyan etmişdir.

# Qazaxıstanda əcnəbilərdən əlavə vergi tutulacaq

Ölkədə turizm imkanlarının təbliğinin genişləndirilməsi məqsədilə çəkilən xərclərin qarşılığı olaraq, hökumət turistlər üçün yeni vergi tətbiq olunmasını ictimaiyyətlə müzakirə edir.

Mədəniyyət və idman nazirinin müavininin məsləhətçisi Yerkebulan Hasenov Sahibkarların Milli Palatasında turizmin inkişafına həsr edilmiş çıxışında bildirmişdir ki, Qazaxıstan marketinq və turistlərin cəlb edilməsi üçün ölkənin tanıdılması sahəsində bir çox dövlətlərdən, eləcə də öz rəqiblərindən geri qalır: «Hazırda dünyada Qırğızıstan, Özbəkistan, Azərbaycan, Monqolustan haqqında daha çox bilirlər, nəinki Qazaxıstan barədə. Mən hələ heç Gürcüstanı demirəm. Bütün bunlar adı çəkilən ölkələrin bu məsələyə əsaslı yanaşmasının nəticəsidir və onlar özlərinin tanıdılmasına daha çox vəsait xərcləyirlər.

Məsələn, Gürcüstanın özünü tanıtmaq üçün ayırdığı büdcə Qazaxıstanda 2017-ci il üzrə marketinq üzrə ayrılan büdcədən 14 dəfə çoxdur. Çexiyada və Birləşmiş Ərəb Əmirliklərində turizm imkanlarının təqdim edilməsinə bizdəkindən 40 dəfə çox pul xəclənir. Ona görə də biz bu sahəyə vəsait ayırmayınca bir ölkə kimi bizi tanıyan olmayacaq».

V.Hasenov onu da diqqətə çatdırmışdır ki, bu sahədə qabaqcıl təcrübəyə malik ölkələrin marketinq üzrə orta büdcə göstəricilərinə yaxınlaşmaq üçün hazırkı büdcəni 1 milyon dollardan 6-7 milyon dollara çatdırmaq tələb olunur. Həmin vəsaiti əldə etmək üçünsə «Bed Tax» deyilən gecələmə vergisinin tətbiqi təklif edilmişdir. Turist yığımlarından əldə edilən əlavə vəsaiti isə marketinq və tanıtma xərclərinə yönəltmək olar: «İlk mərhələdə biz yalnız xarici ölkə vətəndaşlarından bir gecə üçün 2 dollar vəsait yığılmasını nəzərdə tuturuq. Bu addımın atılması sayəsində hər il 4-5 milyon dollar əlavə vəsait əldə etmək mümkün olacaq».

# Tunis iqtisadi islahatları davam etdirməlidir

Avropa İttifaqı (Aİ) Komissiyasının sədri Jan-Klod Yunker Tunis rəhbərliyini iqtisadi islahatları davam etdirməyə çağırmışdır. Tunisin apardığı islahatların məcburi olduğunu qeyd edən Yunker hökumətin yüksək rütbəli təmsilçilərinin iştirak etdiyi mətbuat konfransında demişdir: «Son dərəcə böyük fədakarlıq tələb edən islahat prosesini davam etdirməsi üçün Tunisi dəstəkləyirik.

Bunlar ölkəni daha dayanıqlı vəziyyətə gətirmək üçün atılması zəruri olan məcburi addımlardır». Yunker bu islahatların həyata keçirilməsi üçün Avropa İttifaqı maliyyə qurumlarının Tunisə göstərdikləri dəstəyi davam etdirəcəyini vurğulamışdır.

Qeyd edək ki, Aİ keçən ilin əvvəlindən Tunisi «vergi cənnətləri»nin «qara siyahı»sından çıxararaq «boz siyahı»ya salmış, bundan sonra iqtisadi əməkdaşlıq üçün yeni perspektivlər yaranmışdı. Bunun nəticəsi olaraq, Tunis Prezidenti ilə Avropa Komissiyası arasında Aİ ilə 270 milyon avro dəyərində 4 maliyyə sazişi imzalanmışdır.

# Rusiyada özüməşğul şəxslərlə bağlı qanun layihələri qəbul olunub

Dövlət Dumasının qəbul etdiyi qanun layihələri özüməşğul insanlar üçün vergi rejiminin müəyyənləşdirilməsini nəzərdə tutur. Rusiyanın özüməşğul əhalisi üçün eksperiment qaydasında xüsusi vergi rejimi tətbiq ediləcək. Bu rejimdən işəgötürən tərəf olmadan və əmək müqaviləsi əsasında muzdlu işçilər cəlb etmədən fəaliyyət göstərən, bu fəaliyyətdən gəlir əldə edən fiziki şəxslər istifadə edə biləcəklər. Peşə gəlirlərindən vergini əvvəlcə Moskvada, Moskva və Kaluqa vilayətlərində, eləcə də Tatarıstanda fəaliyyət göstərən fiziki şəxslər istifadə edəcəklər. Onların illk gəlirləri 2,4 milyon rubldan (62 221 manat) artıq olmamalıdır.

Eksperimentin müddətinin 10 il - 2019-cu ilin 1 yanvarından 2028-ci ilin sonuna qədər davam etməsi nəzərdə tutulur. Özüməşğul şəxslər fiziki şəxslərə mal və xidmət satanda 4 faizlik, bu əməliyyatı hüquqi şəxslər və fərdi sahibkarlarla apardıqda isə 6 faizlik dərəcə ilə vergi ödəyəcəklər.

krossvord



**Yuxarıdan aşağı:** 1.Ongünlük; 2.Ruslarda toy mərasimində verilən dairəvi çörək, adətən, şirin maya ilə hazırlanır və bəzədilir; 3.Musiqi janrı. Psixoloji vəziyyət; 4.ABŞ-da ştat; 5.Azərbaycanın xalq yazıçısı, məşhur dramaturq və kinossenaristin adı. «Uzaq sahillərdə» povestinin həmmüəllifi; 6.İnternatura keçən tibb məzunu; 9.Fransız yazıçı, ədəbiyyatda elmi fantastika janrının görkəmli nümayəndələrindən biri («Kapitan Qrantın uşaqları», «80 gün dünya ətrafında» əsərlərinin müəllifi); 13.Kimyəvi element; 15.Zərif yunlu qoyun növü; 16.Nizamlanmış kəmiyyətlər yığımı; 17.İngilislərdə yüksək təbəqəyə mənsub kişilərə müraciət forması; 18.Radio və televiziyada mətnləri oxuyan; 20.«Söyüdlü arx» romanının müəllifinin adı; 21.«Ögey ana» filminin rejissorunun adı.

**Soldan sağa:** 1.Qlükozanın əvvəlki adı; 5.Rəqəm; 7.Müasir Tunis şəhərinin yaxınlığında xaraba şəhər muzeyi. Eyniadlı qədim imperiyanın paytaxtı; 8.Aralıq dənizində ada; 10.Dünya İqtisadi Forumunun keçirildiyi şəhər; 11.Bitki növü; 12.Çin Xalq Respublikasında türkdilli xalq; 14.Yaponiyada çəkilmiş animasiya filmi; 19.Gürcü əsatir qəhrəmanı; 21.İngiltərə yazıçısı C.K.Roulinqin məşhur romanında baş qəhrəmanın adı; 22.Türk və altay xalq mədəniyyətində bərəkət mərasimi; 23.Müxtəlif sahələr üzrə fəaliyyət göstərən istehsal müəssisələrinin birliyi; 24.Fransada çay; 25.Qərbi Azərbaycanın qədim mahallarından biri.



Müasir Tunis şəhərinin yaxınlığında xaraba şəhər muzeyi. Eyniadlı qədim imperiyanın paytaxtı

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Atabəy; 2.Şturval; 3.Ratin; 4.Nekkar; 5.Kolli; 6.Dollar; 9.Qulu *(Əsgərov)*; 13.İqbo; 15.Kriolit; 16.Skelet; 17.Mikrob; 18.Təkrar; 20.Limon; 21.Qoyya *(Fransisko)*. **Soldan sağa:** 1.Apşeronsk; 5.Kud; 7.Akustika; 8.Alol; 10.Əlvan; 11.Apuliya; 12.Elçin *(Əzizov)*; 14.Bulka; 19.Kolibri; 21.Qaimə; 22.Lama; 23.Kraysler; 24.Ton; 25.Gibraltar.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

idman

## Badmintonçularımızdan əla nəticə



Misirin paytaxtı Qahirə şəhərində badminton üzrə «Egypt International 2018» turnirinə yekun vurulub. Ölkəmizi turnirdə badmintonçularımız Edi Reski Dviçayo və Ezmi Qovimuramadhoni təmsil ediblər.

Azərbaycan Badminton Federasiyasının yaydığı məlumatda bildirilir ki, mübarizəyə əsas mərhələdən start verən Edi Reski Dviçayo ilk görüşünü Yunanıstan təmsilçisi İlias Xansouya qarşı keçirib. Oyunun ilk setində hesab 9:4 Edinin xeyrinə olarkən Xansou ayağından zədə alıb. Texniki qələbə ilə səkkizdəbir final mərhələsinə yüksələn E.Dviçayo macarıstanlı Gerqo Pitelə 2:0 (21:6, 21:14) hesabı ilə qalib gəlib. Dörddəbir finalda isə idmançımız Mavriki Respublikasının təmsilçisi, yarışın bir nömrəli reytinq favoriti Julyen Polu 2:0 (21:14, 21:18) hesabı ilə məğlub edib. Yarımfinalda çexiyalı Milan Ludik üzərində 2:0 (21:16, 21:8) hesablı qələbə qazanan idmançımız finalda macarıstanlı Gergeli Krauza da set vermədən qalib gəlib - 2:0 (21:16, 21:16). Beləliklə, Edi Reski Dviçayo kişilərin şəxsi yarışında «Egypt International 2018» turnirinin qalibi adını qazanıb.

Digər badmintonçumuz Ezmi Qovimuramadhoni isə ilk görüşündə Rio Olimpiadasının iştirakçısı Lino Munoza 0:2 (13:21, 11:21) hesabı ilə uduzub. Edi Reski Dviçayo - Ezmi Qovimuramadhnoni cütü kişilərin qoşa yarışında uğurlu çıxışla yadda qalıblar. Onlar dörddəbir finalda Pakistan (Anjum Bəşir/Şahmer İltikhar), ardınca isə Misir (Əhməd Salah/Əbdülrəhman Əbdülhakim) badmintonçularına 2:0 hesabı ilə qalib gəliblər. İdmançılarımız həlledici görüşdə misirli Əli Əhməd Əl Xateb və malayziyalı Yogendran Krişnan cütünü 2:1 (18:21, 21:15, 21:18) hesabı ilə məğlub edərək, kişilərin qoşa yarışında qızıl medala sahib olublar.

## Dünya çempionatına yekun vuruldu



Macarıstanın paytaxtı Budapeştdə keçirilən güləş üzrə dünya çempionatı başa çatıb. Azərbaycanın yığma komandası çempionatı beş medalla başa vurub. Sərbəst güləşçimiz Cəbrayıl Həsənov gümüş, qadınlardan - Mariya Stadnik gümüş, İrina Netreba bürünc, yunan-Roma güləşi üzrə Rəsul Çunayev bürünc medala sahib olublar. Millimizə yeganə qızıl medalı qazandıran isə 55 kq çəki dərəcəsində çıxış edən yunan-Roma güləşi üzrə Avropa çempionu Eldəniz Əzizli olub.

Yarışın altıncı günündə dörd çəki dərəcəsində yunan-Roma güləşçilərinin mübarizəsinə start verilib. Eldəniz Əzizli ilk mərhələdə macarıstanlı rəqibini cəmi bir dəqiqəyə məğlub edib. Təmsilçimiz çinli rəqibini də ilk hissədə mübarizədən kənarlaşdırıb. Uğurlu çıxışını davam etdirən idmançımız yaponiyalı güləşçini də vaxtından əvvəl üstələyərək adını yarımfinala yazdırıb. Yarımfinalda Gürcüstan pəhləvanını yolundan kənarlaşdıran E.Əzizli final görüşündə Qırğızıstan təmsilçisinə heç bir şans verməyərək qızıl medala sahib olub. Bu, onun ilk dünya çempionluğudur. Həmin gün tatamiyə çıxan daha bir yunan-Roma güləşçimiz - Rəsul Çunayev ardıcıl olaraq yapon və iranlı güləşçiləri məğlub etsə də, yarımfinalda ikiqat dünya çempionu olmuş alman güləşçiyə uduzub. Bürünc medal uğrunda qarşılaşmada Rusiya təmsilçisini məğlub edən idmançımız üçüncü yerlə kifayətlənib.

## Kral klubu Lopedeqi ilə vidalaşdı



İspaniyanın «Real Madrid» futbol klubunun rəhbərliyi baş məşqçi Xulen Lopeteqi ilə müqaviləyə vaxtından əvvəl xitam verib. Klubun rəsmi saytında bildirilir ki, qərara səbəb son vaxtlar Kral klubunun nəticələrinin qənaətbəxş olmamasıdır. Baş məşqçinin vəzifəsini müvəqqəti olaraq «Kastilya» klubunun məşqçisi Santyaqo Solari icra edəcək.

«Real Madrid» futbol klubu oktyabrın 28-də «Barselona» ilə keçirilən «El Klasiko» matçında 1:5 hesabı ilə ağır məğlubiyyətlə üzləşib. Komanda keçirdiyi son 7 oyundan 5-də uduzub və 10 turdan sonra ölkə çempionatında 9-cu yerdə qərarlaşıb. Bütün bunlar isə təbii olaraq, klub rəhbərliyinin səbr kasasının daşmasına gətirib çıxarıb. Qeyd edək ki, komandaya baş məşqçi vəzifəsinə namizədlər arasında İngiltərənin «Çelsi» klubunun çalışdırıcısı Antonio Kontenin adı daha çox hallanır.

## «Rusiya-2018» tarixin ən yaxşı turniri adlandırılıb

Beynəlxalq Futbol Federasiyaları Assosiasiyası (FIFA) Şurası Rusiyada keçirilən 2018-ci il dünya çempionatını tarixdə ən yaxşı turnir adlandırıb. Bu barədə jurnalistlərə açıqlama verən FIFA Şurasının üzvü Aleksey Sorokin təşkilatın rəhbər heyətinin Ruandada keçirilən iclası başa çatdıqdan sonra bildirib: «Olduqca ətraflı hesabat səslənib. FIFA-nın yarışların və tədbirlərin keçirilməsi üzrə departament direktoru Kolin Smit faktoloji hesabat təqdim edib. Mən də ümumi və emosional xarakterli çıxış etdim. Ümumilikdə, dünya çempionatı yekdilliklə və bütün parametrlərə görə uğurlu, idman tarixində ən yaxşı turnir hesab edilib. Bu barədə Şuranın qəbul etdiyi hesabatda deyilir». Son mundialda bir çox göstəricilərə görə bundan əvvəlki dünya çempionatlarının rekordları təzələnib. Pulsuz nəqliyyat, azarkeşlərin identifikasiyası və digər yeniliklər kimi təşəbbüslər uğurlu sayılıb.

Xatırladaq ki, dünya çempionatında Rusiya yığması tarixində ilk dəfə turnirin dörddəbir finalına yüksəlib və yalnız penalti seriyasında xorvatlara məğlub olub.

mozaika

cəmiyyət

## «Azadlıq heykəli»ndən iki dəfə hündür...




Bu gün Hindistanda dünyanın ən hündür heykəli - görkəmli siyasi xadim, 1947-ci ildə Britaniyanın müstəmləkə əsarətindən qurtulmaq üçün xalq hərəkatının ən fəal üzvlərindən biri Sərdar Vallabhbhainin abidəsinin açılışı olacaq. Ölkənin Qujarat ştatındakı Narmada çayı sahilində ucaldılan 182 metr hündürlüyü olan abidənin oktyabrın 31-də keçiriləcək açılış mərasimində layihənin təşəbbüskarı, ölkənin Baş naziri Narendra Modi iştirak edəcək.

Baş nazir Modi 2013-cü ildə bu abidənin təməlqoyma mərasimində bildirmişdi ki, «...hazırda bütün dünya hündürlüyü 93 metr olan Amerikadakı «Azadlıq heykəli»ndən danışır. Biz Sərdar Vallabhbhainin ondan ikiqat hündür heykəlini ucaltmaq istəyirik».

Sözügedən iddialı layihə Hindistanın Baş naziri tərəfindən hələ 2010-cu ildə ictimaiyyətə təqdim olunmuşdu. N.Modi həmin vaxt Qujarat ştatının naziri idi. Abidənin tikintisi işlərinə Qujarat ştatı, federal hökumət büdcəsi və özəl şirkətlərin 410 milyon dollar məbləğində vəsaiti cəlb olunub. Bundan başqa, Baş nazir əyalət fermerlərini də abidənin ucaldılması üçün ianələr verməyə çağırıb.

Hindistanın hökumət başçısı gələcəkdə ölkənin milli rəmzi olacaq yeni və daha hündür «Şivaji» heykəlinin də ucaldılmasının nəzərdə tutulduğunu bildirib. Hind okeanının sahilində - Mumbai şəhərində qoyulacaq bu heykəlin hündürlüyü 212 metrə çata bilər.

maraqlı

## Mağara sakinləri

Qırğızıstanın Cəlalabad vilayətinin 68 yaşlı sakini Tolon Mamırasulov 1995-ci ildən ailəsi ilə birgə vilayətin ucqar dağlarında - mağarada yaşayır. İxtisasca musiqiçi olan Tolon və həyat yoldaşı burada beş övlad böyüdüblər. Onların dördü ailəlidir və Cəlalabadda yaşayır. Ailə başçısı ona baş çəkməyə gələn jurnalistlərə deyib: «Mən 23 il əvvəl iflic olmuşdum, yuxuda bu mağaranı gördüm, bu məkanı tapıb ailəmlə mağaraya köçdüm və sağlamlığıma qovuşdum». Tolon müsəlman olsa da şamanizmlə də məşğuldur və qırğız xalq çalğı aləti olan komuzda çalır. O deyib ki, mağarada elektrikin və müasir məişət əşyalarının, mebellərin olmaması onları narahat etmir və ailə təbiətlə təmasda yaşamaqdan zövq alır. Yaxınlıqdakı kəndlərin sakinləri dua etmək və xeyir-dua almaq üçün tez-tez bu mağaraya baş çəkirlər.

qalaktika

## «Pişik pəncərəsi»

NASA Əqrəb bürcündə NGC 6334 dumanlığının fotosunu yayıb. Alimlər bu dumanlığı «Pişik pəncəsi» adlandırıblar. Foto «Spitser» kosmik teleskopunun köməyilə çəkilib.

Kosmik obyekt Yer planetindən 4200-5500 işıq ili məsafəsində yerləşir. Dumanlıqdakı isti qaz topaları pişik pəncəsinə oxşadığı üçün alimlər ona müvafiq adı veriblər. NGC 6334 dumanlığındakı qaz və toz ulduz yaratmaq üçün dağılanda parlaq səma cisimləri əhatə olunduqları həmin qazları təzyiq altında qızdırmaqla məkanda genişlənməyə və topalar formalaşdırmağa sövq edə bilir.



mədəniyyət

## Azərbaycanlı dirijor Polşa səhnəsində



Polşanın ən böyük və qədim Vroslav Opera və Balet Teatrında klassik balet şedevrlərindən olan Adolf Adamın «Jizel» əsərinin yeni quruluşda premyerası olub. Tamaşanın musiqi rəhbəri və quruluşçu dirijoru Azərbaycanın Əməkdar artisti, beynəlxalq müsabiqələr laureatı, Akademik Dövlət Opera və Balet Teatrının dirijoru Əyyub Quliyevdir.

Səhnə əsəri dünya şöhrətli xoreoqraflar Jean Coralli və Jules Perrotun (Fransa) quruluşunda səhnələşdirilib. Onun yeni versiyası Varşava Milli Opera Teatrının baletmeysterləri Eva Glovacka və Zofia Rudnicka tərəfindən bərpa olunaraq Vroslavda yenidən tamaşaçıların ixtiyarına verilib. Dünyaca məşhur aktyorların rol aldığı tamaşa böyük maraqla qarşılanıb. Tamaşadan sonra Vroslav Opera və Balet Teatrının direktoru Marçin Naleç-Niselovski dirijor Əyyub Quliyevə və digər iştirakçılara təşəkkür edib. Həmyerlimiz teatrın rəhbərliyi tərəfindən bu məşhur sənət ocağında digər səhnə əsərlərinə də dirijorluq etmək üçün dəvət alıb.

interaktiv

## Səs və jestlərlə idarə olunan yeni avtomobil

Yapon tədqiqatçılar qrupu tərəfindən avtomobili səs və jestlər vasitəsilə idarə etməyə imkan verən interaktiv idarəetmə sistemi təqdim edilib. Ölkənin Naqoya Universitetində çalışan tədqiqatçılar qrupu dünyada ilk dəfə yaradılan yeni sistem barədə məlumat yayıb. Həmin qrupa avtomobilin ötürmə qutusunun istehsalçıları daxildir.

Yeni sistemə avtomobildə yerləşdirilən, səs, jest və gözlərin hərəkəti ilə verilən komandaları qəbul edən sensor daxildir. Sensor qəbul etdiyi komandanı avtomobilin nəzarət sisteminə ötürür. Beləliklə, avtomobili hərəkətə gətirmək və ya onu saxlamaq, eyni zamanda, sürəti artırıb-azaltmaq mümkündür. Əgər sistem hərəkətin istiqamətini düz seçməyibsə, bu zaman sürücü başının hərəkəti ilə onun düzgün seçim etmədiyini bildirərək düzgün variantı söyləyə bilər.

texnologiya

## Yeni smartfon təqdim olundu

«OnePlus» şirkəti bu il üçün ikinci flaqman smartfonu olan OnePlus 6T modelini təqdim edib. Yeni modelin əsas dəyişiklikləri siyahısında ekrana inteqrasiya olunmuş barmaq izi skanı texnologiyası, yüksəldilmiş batareya həcmi, təkmilləşdirilmiş kameralar, yenilənmiş dizayn və proqram təminatı var. Bu model istifadəçini yenilənmiş ön panel ilə qarşılayır. Belə ki, əvvəlki modeldən fərqli olaraq, OnePlus 6T-nin ekranındakı çıxıntı hissə daha kiçik və V şəklindədir. Bunun sayəsində smartfonun 6.4 inç AMOLED ekranı ön panelin 86%-ni əhatə edir. Bununla yanaşı, smartfonun ekranı «Gorilla Glass 6» qoruyucu şüşə ilə də örtülüb.

Yeni modelin arxa panelində barmaq izi skanı texnologiyası yoxdur. Bunun əvəzinə barmaq izi skanı smartfonun ekranına inteqrasiya olunub və barmaq izi işarəsi ilə əks olunub. Bundan əlavə, smartfon istifadəçi üzünün skanı vasitəsilə blokdan çıxarılma funksiyasını da dəstəkləyir. OnePlus 6T-də olan vacib dəyişikliklərdən biri də onun ənənəvi 3.5 mm-lik audiogirişdən məhrum olmasıdır. Bunun yerinə şirkət USB Type-C girişindən və ya Bluetooth-dan istifadə etməyi məsləhət görür. Götürülmüş 3.5 mm-lik audiogiriş əvəzinə smartfonun batareya həcmi yüksəlib. Yeni smartfon 3700 mAh enerji tutumlu batareya ilə təchiz olunub.

**Müdriklər deyib ki...**



*«Ədalət ancaq həqiqətdən, səadət ancaq ədalətdən əmələ gələ bilər».*
*Anatol Frans (1844-1924)*